# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5
APREL
2019-cu il
№ 60 (3958)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# ANNA AKOPYANIN ABŞ KONQRESİNDƏ ALDADICI QARABAĞ SÜLHÜ VƏ «MƏXMƏRİ İNQİLAB» MÜZAKİRƏLƏRİ AÇMAQ SƏYLƏRİ ALINMADI...

səh. 5

Ermənistan yeni aprel xofunda - 2016-da Azərbaycan Ordusunun cəmi 20 faizi Ermənistanla vuruşmuşdu...

səh. 9

Türkiyənin hakim partiyasından qopmaların başlayacağı iddiası...

səh. 8

Amerika şirkətlərinin "Əsrin müqaviləsi"ndən çıxması - neft sektorumuza mümkün neqativ təsirlər, siyasi motiv...

səh. 12

Son seçki nəticələrini AKP-nin iqtisadi siyasəti ilə bağlayırlar - Azərbaycanda necə düşünülür...

səh. 5

Bundan sonra Azərbaycanda məhkəmə qərarlarını ictimaiyyətdən gizlətmək mümkün olmayacaq

səh. 11

Yaradıcılıq ittifaqlarının yeni qalmaqalı - Prezident mükafatçılarının sayı barədə niyə hesabat verilmir

səh. 15

Məhkəmə proseslərinin audioyazılarının aparılması hansı neqativləri aradan qaldıracaq...

səh. 11

"Diqlas" zərərçəkənlərinin əvvəlki bank borclarına güzəştin tətbiq mexanizmi...

səh. 7

*Həmsədr ölkə rəhbərlərindən tək Putinin fəallaşması maraqlı müzakirələrə yol açıb*



## Qarabağ münaqişəsinin həllində Rusiyanın mövqeyi kardinal dəyişib - Moskva həll imitasiyasından ciddi işə keçdi...

səh. 4



Qarabağ müharibəsinin I mərhələsi nədir - Azərbaycan Prezidenti Ermənistan siyasətçilərini böyük müzakirəyə çəkdi, Azərbaycandan baxışlar...

səh. 3



Xəzərin Azərbaycan sektorunda alman şirkəti ilə Azərbaycanın daha böyük enerji əməkdaşlığına start verilir

səh. 7

Türkiyə və Rusiyanın «Troya anlaşması», Azərbaycan və Ermənistan üçün yeni geosiyasi vəziyyət, ABŞ sərtləşir...

səh. 8

Azərbaycanın Avroittifaqla ayrıca dialoq mövzusu rəsmən açıqlandı

səh. 3



Qarabağda ermənilərin "mədəniyyət vandalizmi"nə amerikalı ekspertdən sərrast zərbə - Bakının ortasında 5 min kitabı olan erməni kilsəsi..

səh. 10



Azərbaycanda bələdiyyə seçkiləri niyə Türkiyədəki kimi canlı keçmir...

səh. 6



Sahibkarlar üçün ölkədə ayrıca məhkəmələr qurulacaq...

səh. 11



Radikal düşərgənin aşa bilmədiyi sual - bu gün Azərbaycanda mitinqlərlə həll oluna bilən problemlər varmı...

səh. 6



# Prezident İlham Əliyev Rusiyanın ticarət nazirini qəbul edib



**Prezident İlham Əliyev aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsinin ildən-ilə yüksəldiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirib. Dövlət başçısı Rusiya şirkətlərinin Azərbaycanda fəal işlədiklərini və bu şirkətlərin həm investor, həm də podratçı qismində müxtəlif layihələri icra etdiklərini qeyd edib.

Denis Manturov iqtisadi əməkdaşlığın inkişafında kibertəhlükəsizliyin önəmini xüsusilə vurğulayıb. Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumunun əhəmiyyətinə toxunan rusiyalı nazir Forumda 60-dan artıq Rusiya şirkətinin iştirak etdiyini vurğulayaraq, tədbirdə Azərbaycan şirkətləri ilə işgüzar müzakirələrin aparılacağına ümidvar olduğunu bildirib.

## Nizami Xudiyevə Prezidentin fərdi təqaüdü təyin edildi

**Prezident İlham Əliyev Nizami Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Nizami Manaf oğlu Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin. Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Azərbaycan Qlobal kibertəhlükəsizlik reytinqində MDB ölkələri arasında 4-cü, dünyada 55-ci yerdə qərarlaşıb

**Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi "Qlobal kibertəhlükəsizlik indeksi 2018" reytinqində 55-ci yerdə qərarlaşıb.**

"Trend"in məlumatına görə, Azərbaycan 0.653 xal toplayıb. Azərbaycan MDB ölkələri arasında Belarus, Ermənistan, Tacikistan, Qırğızıstan və Türkmənistanı qabaqlayaraq 4-cü olub. Dünya ölkələri arasında Azərbaycan Serbiya, Yunanıstan, İran, İslandiya kimi ölkələri qabaqlayıb.

Reytinqdə ilk üçlükdə isə Böyük Britaniya, ABŞ və Fransa qərarlaşıb.

## Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüş vaxtı razılaşdırılıb - ancaq hələ açıqlanmır



**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün vaxtı razılaşdırılıb.**

"Trend"in məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasının yekununda keçirilən mətbuat konfransı zamanı deyib.

Nazir bildirib ki, yaxın zamanlarda ikitərəfli görüş baş tutacaq: "Biz artıq tarix barəsində razılıq əldə etmişik. Bu tarix ənənəvi olaraq Bakıda və Yerevanda açıqlanacaq".

## Milli Məclisdə İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun qapalı iclası keçirildi

**Milli Məclisdə İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun qapalı iclasında hansı məsələlərin müzakirə olunduğu açıqlanıb.**

İclasda iştirak edən Milli Məclisin Beynəlxalq əlaqələr və parlamentlərarası münasibətlər komitəsinin sədri Səməd Seyidov özəl olaraq "Trend"ə bildirib ki, toplantıda bir çox məsələlər geniş şəkildə müzakirə olunub: "Xüsusilə iclasda Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında fərmanına və bu fərmandan irəli gələn məsələlərə diqqət yetirildi. Bu fərman qrupun daxilində müzakirə etdiyimiz məsələlərə böyük kömək göstərəcək". S.Seyidov əlavə edib ki, iclasda bu fərmanın əhəmiyyəti yüksək qiymətləndirilib: "Bundan əlavə, Avropa Şurasında və başqa beynəlxalq təşkilatlarda gedən proseslər və insan haqları ilə bağlı məsələlər müzakirə olundu və yekunda qərarlaşdırdıq ki, müntəzəm olaraq yığışıb müvafiq məsələlərin müzakirəsini davam etdirək".



Qeyd edək ki, aprelin 3-də İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun iclasının bir hissəsi mətbuat üçün açıq olub, sonra iclas qapalı şəkildə davam etdirilib.

İclasda Azərbaycan Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri Fuad Ələsgərov, Azərbaycanın İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında daimi nümayəndəsi, Azərbaycan Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri Çingiz Əsgərov, şöbənin Əfv məsələləri sektorunun müdiri Kəmalə İsmayılova, daxili işlər nazirinin müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyev, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi İlqar Cəfərov, Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitənin üzvü Çingiz Qənizadə, hüquq müdafiəçiləri - Novella Cəfəroğlu, Səadət Bənəniyarlı, Əvəz Həsənov, Mirvari Qəhrəmanlı və Arzu Abdulayeva iştirak edib.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Mərkəzi Bank il ərzində Azərbaycanda inflyasiyanın sabit qalacağını bildirdi

**İl ərzində Azərbaycanda inflyasiya sabit qalacaq. "Trend"in məlumatına görə, bunu Azərbaycan Mərkəzi Bankının pul siyasəti departamentinin direktoru Azər Ələsgərov Bakıda "Fitch Ratings" agentliyinin illik konfransında deyib.**

Onun sözlərinə görə, cari əməliyyatlar balansı ÜDM-in 13 faizini təşkil edir: "Azərbaycan cari əməliyyatlar balansı ikirəqəmli olan nadir ölkələrdəndir". A.Ələsgərov qeyd edib ki, ölkənin valyuta bazarı balanslaşdırılmış rejimdə fəaliyyət göstərir, valyuta ehtiyatları artır, dollarlaşma isə azalır.

**Mərkəzi Bankın pul siyasəti bazarda qiymətlərin sabitləşməsinə yönəlib.**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbi qulluqçularla görüşü zamanı olduqca mühüm əhəmiyyət kəsb edən bəyanatlar səsləndirib.**

# Qarabağ müharibəsinin I mərhələsi nədir - Azərbaycan Prezidenti Ermənistan siyasətçilərini böyük müzakirəyə çəkdi, Azərbaycandan baxışlar...

*"Cənab Prezidentin fikirlərindən çıxan ən böyük məna budur ki, Ermənistan bundan nəticə çıxarsın"*



Prezident aprel döyüşlərində ordumuzun şanlı qələbəsindən də danışıb: "Aprel döyüşlərindən 3 il keçir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Döyüşlər zamanı itkilərimiz də olub, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıtdılar. Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülmüşdür...".

Ölkə başçısı, həmçinin, Ermənistanla müharibənin hələ bitmədiyini xüsusi olaraq vurğulayıb:

"Bu gün Azərbaycan Ordusu uğurla inkişaf edir, ordu quruculuğu prosesi sürətlə gedir, bizim hərbi hissələrimiz yenidən qurulur, yenidən tikilir, ordumuz ən müasir texnika ilə təchiz edilir. Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır".

Ölkə başçısının bu fikirləri Ermənistan KİV-i tərəfindən geniş analiz edilir. Xüsusilə də İlham Əliyevin müharibənin hələ bitməməsi, yanız birinci mərhələsinin başa çatması ilə bağlı dediklərini ermənilər özlərinə sərf edən tərzdə yozmağa başlayıblar. Elə bizim özümüz üçün də maraqlıdır. Ölkə başçısı müharibənin yalnız birinci mərhələsinin bitməsi deyəndə nəyi nəzərdə tutub, bunu necə başa düşmək olar?

**Millət vəkili, politoloq Elman Nəsirov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının həmin fikirlərində böyük məna əks olunub:** "Bəli, Prezident aprel döyüşləri ilə bağlı tədbirdə bir daha söylədi ki, həmin hadisə şanlı tariximizin parlaq səhifəsidir. Eyni zamanda, vurğuladı ki, müharibənin yalnız birinci mərhələsi başa çatıb. Bu fikirləri erməni mətbuatı cürbəcür kontekstdən təqdim edir, ən əsası isə öz xeyirlərinə interpretasiya edirlər. Əslində isə bu fikrin əsas məzmunu budur ki, ermənilər heç də müvəqqəti üstünlükləri ilə öyünməsinlər.

*Elman Nəsirov: "Bu fikrin əsas məzmunu budur ki, ermənilər heç də müvəqqəti üstünlükləri ilə öyünməsinlər"*

Bilsinlər ki, onlar heç də müharibəni udmayıblar. Yalnız müharibənin birinci mərhələsi başa çatıb. Bu o deməkdir ki, əgər ermənilər torpaqlarımızı dinc yolla geri qaytarmasalar, heç kim təminat verə bilməz ki, müharibənin ikinci mərhələsi olmayacaq. Bu baxımdan aprel döyüşləri ermənilər üçün bir dərs olmalıdır. 4 günlük döyüşdə bu sübut edildi. Erməni ordusunun yaratdığı məğlubedilməz mif tamamilə darmadağın oldu. Azərbaycan Ordusu göstərdi ki, torpaqlarımız üzərindəki suverenliyi bərpa etmək üçün hər cür gücə malikik. Ən müasir silahlarla silahlanan ordumuzla xalqımızın sıx birliyi var. Məhz bu amilləri bildiyi üçün Ali Baş Komandan belə əminliklə danışır.

**Cənab Prezidentin fikirlərindən çıxan ən böyük məna budur ki, Ermənistan bundan nəticə çıxarsın. Əks təqdirdə müharibənin növbəti fazası ilə üzləşə bilər".**

*Məhəmmədəli QƏRİBLİ*



# Azərbaycanın Avroittifaqla ayrıca dialoq mövzusu rəsmən açıqlandı

*XİN başçısı beynəlxalq prinsiplərin yanlış və selektiv tətbiq edildiyini avropalılara ciddi irad tutdu*

**Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 16-cı iclasında çıxış edib. Məruzədə Azərbaycanın xarici siyasəti barədə bir sıra yeni fakt və mülahizələr söylənilib.**

Nazir Azərbaycan - Aİ münasibətlərini fərqli şəkildə izah edib. O deyib: "Münasibətlərimizdə elə bir sıxlıq vardır ki, mən bunu çox müsbət və siyasi nöqteyi-nəzərdən yaradıcı hesab edirəm. Bu, digərləri ilə olan münasibətlərimizdən çox fərqlidir. Belə ki, bu Aİ üçün də regiondakı digərləri ilə münasibətlərindən müsbət mənada fərqli olmalıdır. Biz siyasi gündəliyimizi mühafizə etməliyik. Biz imkanlarımızı maksimum səviyyəyə çatdırmağa ehtiyac duyuruq. Buna görə də mən buradayam.

İlk növbədə, bizim yeni ikitərəfli sazişimizlə (layihə) necə və haraya gedəcəyimizi müzakirə etməyə ehtiyacımız var. İnanıram ki, danışıqlarımızı yekunlaşdırmağa çox yaxınıq. Bu yaxınlarda biz danışıqları, onun bütün 3 hissəsi üzrə sinxronlaşdırmağa müvəffəq olmuşuq. Belə ki, artıq 90 faizi razılaşdırıldığına görə bu gün bizim olduqca yaxşı imkanımız vardır. Mən danışıqları tezliklə yekunlaşdırmaq istiqamətində birgə imkanlarımızın mövcudluğu ilə bağlı müsbət fikirdəyəm..."

Nazir daha sonra maraqlı nüansa işarə edib: "Faktiki olaraq, biz nəqliyyat sahəsində Aİ ilə ayrıca dialoqa başlamışıq. Həmçinin biz vahid aviasiya üzrə saziş ilə bağlı danışıqlar aparırıq.

Yalnız imkanlarımız deyil, həm də çətinliklərimiz vardır. Buna görə də bu yaxınlarda Təhlükəsizlik Dialoqunu da başlatmışıq. Belə ki, biz təhlükəsizlik, terrorizm və ekstremizmə qarşı mübarizə və digər bir çox məsələlərdə oxşar təsəvvürlə tərəfdaşlığımızı necə siyasi dəstəkləyə biləcəyimizi görmək istəyirik. Qeyri-qanuni miqrasiya ilə birlikdə bu məsələlər hamımız üçün ciddi narahatlıq doğura bilər. Burada xüsusilə nəzərə çatdırmaq istərdim ki, beynəlxalq hüquq prinsiplərinin davam edən pozuntusunun nəticələrinin aradan qaldırılması istiqamətində müvəffəqiyyətsizlik, habelə münaqişənin həlli kontekstində bu prinsiplərin yanlış təfsir olunması və selektiv tətbiqi qaydalara əsaslanan Avropa düzənini pozur. Hesab edirəm ki, Avropa İttifaqı qonşuluq siyasətini inkişaf etdirirsə və regionda digər ölkələrə gəldikdə buna siyasi və maliyyə baxımından bu qədər çox sərmayə qoyursa, onda əlbəttə ki, qaydalara əsaslanan bir yanaşma olmalıdır.

Bundan əlavə, Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri üzrə, nəyin bizə kollektiv olaraq vacib olduğunu və tərəfdaşlığımızın nəyi hədəfləməli olduğunu göstərən bu qısa, lakin hərtərəfli sənədimiz var. Bu, prioritetlərdən bəhs edir. Bu, fokusdan bəhs edir. İndi bir intizam yaratmaq və onu həyata keçirmək lazımdır. Orada, deyə bilərəm ki, Azərbaycanın uzaqgörən yanaşması vardır. Biz bunun necə həyata keçirilməsi ilə bağlı ilkin təsəvvürümüzü Aİ ilə bölüşmüşük. Tezliklə mətnimizi sizinlə bölüşəcəyik və bu yaydan əvvəl praktiki cəhətdən implementasiyaya başlayacağımıza ümid edirik. Fərqləndirmə, çeviklilik, diqqət mərkəzində saxlama və daha çox mülkiyyətçilik prinsiplərinin həyata keçirilməsi üçün hər bir ölkənin konkret məqsədləri və iqtisadi potensialına uyğun və prioritetlərə əsaslanan əməkdaşlıq daha səmərəli olardı. Belə bir yanaşma uzunmüddətli münasibətlərimizə müsbət təsir edər və həqiqi fərqləndirmə ruhuna uyğun olardı" - deyə nazir bildirib.

*Baki-xeber.com*

## Həmsədr ölkə rəhbərlərindən tək Putinin fəallaşması maraqlı müzakirələrə yol açıb

# Qarabağ münaqişəsinin həllində Rusiyanın mövqeyi kardinal dəyişib - Moskva həll imitasiyasından ciddi işə keçdi...

***Elşən Manafov:** "Hələlik bununla bağlı konkret nəsə demək çətindir"*

**Rusiya Prezidenti Vladimir Putinin Vyana danışıqlarından sonra Azərbaycan və Ermənistan dövlət başçıları ilə telefon əlaqəsi yaratması maraq doğurdu. Bu arada belə fikirlər səslənir ki, Rusiya əvvəlki illərdən fərqli olaraq, indi Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlıdır. Bu səbəbdən Putin səylərini artırır.**

Bu versiya onunla əlaqələndirilir ki, indiyə qədər Qarabağ konfliktinin donmuş vəziyyətdə qalması Rusiyaya sərf edirdi. Yəni Rusiya üçün bu status-kvo həm Ermənistanı, həm də Azərbaycanı nəzarətdə saxlamağa imkan verirdi. İndi isə situasiya dəyişib. O mənada ki, Ermənistanda hakimiyyətə yeni qüvvələr gəlib. Gürcüstanın NATO-ya inteqrasiyası ilə bağlı proseslər gedir. Belə olan halda, Dağlıq Qarabağla bağlı mövcud status-kvo Moskvanın maraqlarına daha əvvəlki kimi cavab vermir. Uzun illər vəziyyətin belə qalması Rusiyanın Cənubi Qafqazla bağlı maraqlarına bundan sonra mənfi təsir edəcək. Ona görə də Rusiya bölgədə maraqlarını bundan sonra da qorumaq istəyirsə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı real addımlar atmalıdır.

Bu arada bəzi Rusiya ekspertləri də buna bənzər versiyalar səsləndirirlər. Qeyd olunur ki, İlham Əliyev və Paşinyan arasında Vyanada keçirilən görüşdən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri ilə bağlı Moskva-Bakı-İrəvan üçbucağında telefon danışıqlarının intensivləşdirilməsi təsadüfi deyil. ATƏT-in Minsk Qrupunun həmsədri olan digər ölkə rəhbərlərindən fərqli olaraq, yalnız Rusiya Prezidenti münaqişənin sülh yolu ilə həllinin tapılmasına yardım etmək üçün fəal şəkildə çalışır. Rusiyalı ekspertlərin fikrincə, 2016-cı ilin aprelində Putinin səyi ilə cəbhədə atəşkəs bərpa olunub. Paşinyan baş nazir olandan sonra Düşənbə şəhərində İlham Əliyevlə Nikol Paşinyan arasında şifahi razılaşmalara nail olmaqda vasitəçilik edən Putin olub.

Bütün bu deyilənlərin fonunda, Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllində səylərini artırması fikirləri nə dərəcədə realdır? Ekspertlər bununla bağlı səslənən versiyaları necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafov buna bir neçə prizmadan yanaşdı: "Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikirləri birmənalı olmayıb. Etiraf etmək lazımdır ki, Yeltsin prezident olanda Rusiya dolayısı yolla Ermənistanın mövqeyini müdafiə edirdi. Putin prezident olandan sonra Rusiyanın məlum münaqişəyə münasibətdə mövqeyində kardinal dəyişiklik olmasa da, hər halda əvvəlki dövrdə olduğu tərzdə Ermənistan maraqları nəzərə alınmır. Bu da Rusiyanın dünyanın dəyişməkdə olan geosiyasi reallıqlarına münasibətindən qaynaqlanan bir mövqedir. Başqa bir tərəfdən, regionda da vəziyyət dəyişməkdədir. ABŞ Suriyada müəyyən layihələri həyata keçirmək istəyir. Rusiya Suriyadan geri çəkilsəydi, o zaman Ərəb dünyasında nüfuzunu itirərdi. Digər tərəfdən, NATO Rusiya ətrafında hərbi bazalarını genişləndirir. Bununla yanaşı, Rusiyaya yönəlik sanksiyalar artır. Bütün bunlar Rusiyanı MDB məkanında öz geosiyasi maraqlarını qorumaq üçün mübarizəni gücləndirməyə sövq edir. Nəzərə almaq lazımdır ki, Ukraynada baş verənlər Rusiyanın nüfuzuna güclü zərbə vurdu. Bir şeyi unutmaq olmaz ki, Saakaşvili prezident olandan sonra Cənubi Qafqaz uğrunda geosiyasi mübarizə daha kəskin fazaya daxil olub. Hələlik Rusiya müəyyən mənada Gürcüstanın Qərbə inteqrasiyasını ləngitsə də, bu çox uzun çəkməz. Ötən il Ermənistanda baş verən dəyişikliklər də göz qabağındadır. Paşinyanın reallıqda hansı maraqlara xidmət etdiyini tam mənada proqnozlaşdırmaq olmur. Ziddiyyətli bəyanatlar Paşinyanı Qərbin adamı kimi göstərsə də, o, Rusiyadan ehtiyat edir. O da bir həqiqətdir ki, Kreml postsovet məkanındakı münaqişə ocaqlarından rıçaq kimi istifadə edir. Ancaq get-gedə situasiya dəyişir. Digər tərəfdən, Ermənistandan fərqli olaraq, Azərbaycanla təhdid və təzyiq dilində danışmaq mümkün deyil. Ona görə ki, Azərbaycanın müstəqil enerji siyasəti var, strateji bir məkanda yerləşir, özünü ərzaqla təmin edir və s. Bizim Rusiyadan əsas gözləntimiz Qarabağ məsələsinin həllində Kremlin sərgiləyəcəyi mövqedir. Rusiya öz maraqlarını Cənubi Qafqazda davamlı qorumaq istəyirsə, o zaman Dağlıq Qarabağ münaqişəsinin həllində səylərini artırmalıdır. Bununla bağlı Kreml bir qədər tələsməsə, sonra başqa reallıqlar ortaya çıxa bilər. O baxımdan proseslərin gedişini izləmək lazımdır. Hələlik bununla bağlı konkret nəsə demək çətindir".




*"Rusiya öz maraqlarını Cənubi Qafqazda qorumaq istəyirsə, o zaman Dağlıq Qarabağ münaqişəsinin həllində səylərini artırmalıdır"*

***Vidadi ORDAHALLI***

# Avropanın iki Ali komissarı Azərbaycan haqda danışdı - mayda saziş danışıqlarını bitirə bilərik...




**Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini Brüsseldə Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasının yekunu üzrə mətbuat konfransında deyib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması nəticəsində davamlı sülhdən hər kəs faydalanacaq.**

O qeyd edib: "Ötən həftə ATƏT-in Minsk Qrupu həmsədrlərinin himayəsi ilə Azərbaycan və Ermənistan liderlərinin müsbət görüşünün şahidi olduq. Ali səviyyədə təmasların genişlənməsi və atəşkəs rejiminin pozulmasının əhəmiyyətli dərəcədə azalması bizdə prosesin irəliyə doğru hərəkət edə biləcəyinə ümidlər yaradır".

F.Moqerini bildirib ki, davamlı sülhdən təkcə Azərbaycan və Ermənistan yətəndaşları deyil, bu ölkələrdən kənarda da faydalanacaqlar, çünki davamlı sülh bütün regiona öz potensialını reallaşdırmağa kömək edəcək.

Avropa İttifaqının genişlənmə və qonşuluq siyasəti məsələləri üzrə komissarı Yohannes Han isə Brüsseldə Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasının yekunu üzrə mətbuat konfransında deyib ki, Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında tərəfdaşlıq haqqında yeni saziş üzrə danışıqlar mayın ortalarınadək başa çata bilər.

O qeyd edib: "Əgər biz sonuncu mərhələyə vaxtında başlasaq, saziş üzrə danışıqları həqiqətən də başa çatdıra biləcəyik və sənəd martın ortalarında "Şərq tərəfdaşlığı"nın 10-cu ildönümü ərəfəsində razılaşdırılacaq. Düşünürəm ki, bu sazişə malik olmaq vacibdir".

Y.Han bildirib ki, Aİ və Azərbaycan bir çox sahələrdə yaxın tərəfdaşdır: "Avropa İttifaqı Azərbaycanın iri ticarət və investisiya tərəfdaşıdır. Bizim tərəfdaşlıq prioritetlərimizə uyğun olaraq, iqtisadi əlaqələrimizi, o cümlədən Azərbaycan iqtisadiyyatının davamlı şaxələndirilməsinə, ölkənin Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə dəstək və ümumilikdə işgüzar və investisiya mühitinin yaxşılaşdırılması yolu ilə möhkəmləndirməyə çalışırıq".

Aİ komissarı vurğulayıb ki, tərəflər arasında "Cənub Qaz Dəhlizi" üzrə əməkdaşlığı göstərən energetika sahəsində strateji tərəfdaşlıq da mövcuddur: "Biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və azad ticarət zonasının inkişafına dəstək verilməsində də maraqlıyıq".

O, yaxın vaxtlarda Avropa İttifaqı və Azərbaycanın ümumi aviasiya sazişi üzrə danışıqları yekunlaşdıracağına ümid etdiyini deyib.

***Baki-xeber.com***

# Anna Akopyanın ABŞ Konqresində aldadıcı Qarabağ sülhü və "məxməri inqilab" müzakirələri açmaq səyləri alınmadı...

**Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın ABŞ-a səfəri reallaşıb. Erməni KİV-inin təhlili onu deməyə əsas verir ki, Ermənistanın birinci xanımının səfəri heç də uğurlu alınmayıb. ABŞ Konqresində Dağlıq Qarabağla bağlı müzakirə açmaq cəhdi də uğursuz alınıb.**

*"ABŞ-ın nüfuzlu dairələri belə reputasiyalı şəxsə ciddi maraq göstərməkdə maraqlı deyillər"*

Onun Ermənistanda baş verən inqilabı mühüm hadisə kimi təqdim etməsinə də lazımi diqqət göstərilməyib. A.Akopyan yalnız ABŞ Konqresi kitabxanasının rəhbəri səviyyəsində qəbul edilib. Paşinyanın həyat yoldaşı həmin kitabxanaya Matendaran haqda kitab bağışlayıb. Sonra isə onu ABŞ Konqresinin erməni məsələləri üzrə komitə üzvü Anna Eşou qəbul edib. Həmin görüşdə Akopyan özünün rəhbərlik etdiyi iki fond haqqında məlumat verib. Göründüyü kimi, Ermənistanın birinci xanımının ABŞ səfəri uğursuz olub. Onu ABŞ-da adi bir QHT rəhbəri səviyyəsində qəbul ediblər və etdiyi siyasi məzmunlu cəhdlərin heç birini reallaşdıra bilməyib. A.Akopyanın üzləşdiyi ABŞ uğursuzluğunu nə ilə izah etmək olar?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva qəzetimizə açıqlamasında bildirdi ki, A.Akopyanın son ABŞ səfəri nə rəsmi, nə də ABŞ-dan kiminsə dəvəti əsasında baş tutmayıb: "Bu, adi bir jurnalistin ABŞ Konqresi kitabxanasına baş çəkməsi kimi dəyərləndirilə bilər. Çünki səfər yalnız onunla yadda qalıb ki, Akopyan ora ilə geniş tanış olub. Səfər heç də Ermənistan baş nazirinin həyat yoldaşının proqramına uyğun olmayıb. Bu, adi bir mübadilə proqramıdır. Sadəcə, A.Akopyan çox güclü bir piar menecer olduğundan, həmin səfərə siyasi don geyindirməyə çalışıb. Onun Konqresdə görüşdyü şəxslər ABŞ-da erməni lobbisinin layihələrini icra edənlərdir. Həmin adamların ABŞ-da heç bir xüsusi siyasi çəkisi yoxdur. Akopyanın sanki bir erməni məmuru ilə görüşməsi kimi dəyərləndirilə biləcək bir mənzərədir. Bu görüşün Ermənistan-ABŞ münasibətləri və ya sadəcə, Ermənistanın özü üçün hər hansı üstünlüyü vəd edəcəyini proqnozlaşdırmaq sadəlövhlük olar".

Politoloqun sözlərinə görə, Ermənistan tərəfinin ABŞ kitabxanasına təqdim etdiyi kitabın özü də qalmaqallı mövzunu əhatə edir: "Akopyanın səfərinin ən başlıca məqsədi rəhbərlik etdiyi fondları ABŞ-dakı erməni lobbisinə təqdim etmək olub. Səfalət içində yaşayan Ermənistana bu yolla əlavə vəsaitlərin cəlbini hədəf kimi seçiblər. Onun rəhbərlik etdiyi fondlar 2019-cu ilin yanvarından beynəlxalq korrupsiyanı araşdıran qurumun radarına düşüb. Avropanın rəsmi strukturları da A.Akopyanın fondlarının Ermənistanın keçmiş və indiki hökumət üzvlərindən ianə ilə vəsait cəlb etməsinə dair faktların olduğunu açıqlayıblar. Avropa Birliyinin daxili müzakirəsi üçün təqdim olunan korrupsiya hesabatında A.Akopyanın fondları bir milyard yarımlıq mənbəyi şəffaf olmayan köçürmələrdə şübhəli biliniblər. Bu səfərdə Akopyan ABŞ-dakı erməni lobbisi ilə kommunikasiyaya ona görə cəhd edib ki, toplanan vəsaitin erməni milli maraqları üçün xərclənəcəyi görüntüsünü yaratsın. Təbii ki, ABŞ-ın nüfuzlu dairələri belə reputasiyalı şəxsə ciddi maraq göstərməkdə maraqlı deyillər. Eyni zamanda, bunu Paşinyanın ABŞ əleyhinə səsləndirdiyi bəyanatlar və Rusiya ilə tam hesablaşdığı ilə də əlaqələndirmək mümkündür".

**Yeganə Hacıyeva:** *"Bu, adi bir jurnalistin ABŞ Konqresi kitabxanasına baş çəkməsi kimi dəyərləndirilə bilər"*




*Məhəmmədəli QƏRİBLİ*

# Son seçki nəticələrini AKP-nin iqtisadi siyasəti ilə bağlayırlar - Azərbaycanda necə düşünülür...

**Türkiyədə keçirilən son seçkilərlə bağlı ümumi nəticələr məlum olsa da, hələlik yekun rəy yoxdur. Məsələ ondadır ki, CHP namizədinin qalib elan edildiyi İstanbulda səslərin yenidən sayılması da onu göstərir ki, prosesin gərginliyi səngimir.**

*"Həyata keçirilən bir sıra layihələr gözlənilən səmərəni vermədi"*

Ancaq ortaya çıxan ümumi mənzərə onu göstərir ki, AKP, ümumilikdə, irəlidə olsa da, digər seçkilərlə müqayisədə geriləyib. Xüsusilə paytaxt Ankara, ən böyük şəhər olan İstanbulda və 10-dan artıq şəhərdə müxalif "CHP-İYİ partiya ittifaqı"na uduzması hakim partiyanın siyasi nüfuzunun geriləməsi kimi qiymətləndirilir. Bu vəziyyəti şərtləndirən amillər, prosesdə siyasi, yoxsa iqtisadi faktorların daha çox rol oynaması müzakirə mövzusudur.

Belə fikirlər var ki, hakim partiyanın yeritdiyi daxili iqtisadi siyasət nəticələrin belə alınmasına gətirib çıxarıb. Yəni bu səbəbdən hakim partiya əvvəlki illərlə müqayisədə xeyli səs itirib. Nəzərə almaq lazımdır ki, AKP ötən illərdə keçirilən bələdiyyə seçkilərində belə çətinliklərlə üzləşməyib. Adətən bələdiyyə seçkilərini böyük üstünlüklə udub. Belə fikirlər var ki, iqtidarın daxili siyasətə yönəlik iqtisadi islahatlarında müəyyən problemlərin yaranması, lirənin dollara nisbətdə dəyərdən düşməsi, müəyyən iqtisadi kataklizmlərin yaşanması orta statistik seçiciyə öz təsirini göstərib. Bu da, öz növbəsində, sözügedən mənzərənin yaranmasına gətirib çıxarıb.

Maraqlıdır, bələdiyyə seçkilərinin nəticələri aparılan daxili iqtisadi siyasətlə nə dərəcədə əlaqəlidir? Aparılan iqtisadi siyasətin buna təsirləri nədən ibarətdir?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, hakim partiyanın səs itirməsində iqtisadi amillərin rolu böyükdür: "Bu, hakim partiyanın yeritdiyi iqtisadi siyasətlə bağlıdır. Hakim partiya 2014-cü ildə qalib gəldiyi bir sıra bələdiyyələrdə bu dəfə uğur qazana bilmədi. Ona görə ki, son illər Türkiyə iqtisadiyyatında geriləmə var. Bu da birbaşa seçkilərin nəticələrinə öz təsirini göstərir. Türkiyədə əhalinin sosial-iqtisadi vəziyyəti əvvəlki kimi deyil. İşsizlik xeyli artıb. Bu proseslərin əsas aparıcı xətti maliyyə-bank sistemində oldu. Əhalinin gəlirlərinin dəyərsizləşməsi, Türkiyədə inflyasiyanın yüksək səviyyəsi, dövlətin borclarının artması, investorların ölkədən çıxması və nəticədə iş yerlərinin bağlanması öz təsirini göstərdi. Bütün bunlar Türkiyədə hakim partiyanın əvvəlki nüfuzunun xeyli azalmasına gətirib çıxardı. Dəməyim odur ki, hakim partiyanın səs itirməsində iqtisadi faktorun önəmi daha çoxdur. Həyata keçirilən bir sıra layihələr gözlənilən səmərəni vermədi. Onu da nəzərə almaq lazımdır ki, Türkiyənin ABŞ-la münasibətlərində yaşanan gərginliklər də iqtisadiyyata mənfi təsir edib. Həyat şərtlərinin çətinləşməsi və lirənin ucuzlaşması proseslərə öz təsirini göstərdi. Bu faktor yaxın gələcəkdə Türkiyə üçün əhəmiyyətli rol oynayacaq. Əgər sosial-iqtisadi vəziyyətdə ciddi dəyişikliklər baş verməsə, o zaman növbəti seçkilərdə hakim partiya daha çox səs itirə bilər.

**İqtisadi sahədə vəziyyətin düzəldilməsi üçün səylər artırılmalıdır. Xarici borclar artıb, ölkəyə sərmayə qoyuluşu azalıb. Digər tərəfdən, ölkədən kapital axını artıb. Ona görə də iqtisadi sahədə olan dövlət siyasətində ciddi dəyişikliklər həyata keçirilməlidir".**

**Rəsul Cahangirli:** *"Hakim partiyanın səs itirməsində iqtisadi faktorun önəmi daha çoxdur"*



*Vidadi ORDAHALLI*

# Radikal düşərgənin aşa bilmədiyi sual - bu gün Azərbaycanda mitinqlərlə həll oluna bilən problemlər varmı...

**Bakı meriyası Milli Şuranın və Müsavat Partiyasının mitinqlə bağlı müraciətlərinə cavab verib. Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) mətbuat xidmətindən bildirilib ki, həm Müsavat Partiyasına, həm də Milli Şuraya mitinqlə bağlı "yox" deyilib.**





***Fəzail Ağamalı:*** *"Mitinqi keçirmək üçün ciddi əsaslar və sosial sifariş olmalıdır, mən Azərbaycanda bu amilləri görmürəm"*

***Səxavət Soltanlı:*** *"Hakimiyyət hesab edir ki, ölkədə islahat gedir, mühüm problemlər həll olunur, onda icazə versinlər"*

Qeyd edək ki, Müsavat Partiyası aprelin 7-də, saat 15:00-da "İnşaatçılar" metrostansiyası yaxınlığındakı keçmiş "Məhsul" stadionunda mitinq keçirməyi planlaşdırmışdı. Milli Şura isə aprelin 6-da, saat 15:00-dan 17:00-dək eyni məkanda mitinq keçirməyi nəzərdə tutmuşdu.

Bakı meriyası Milli Şuranın və Müsavat Partiyasının nümayəndələrini mitinqə icazə verilmədiyi barədə məlumatlandırıb.

Hazırda hakimiyyətin bir çox sahələrdə ciddi islahatlar apardığı nəzərə çarpır. Sosial-iqtisadi sahəni əhatə edən islahatlar paketi böyük əhali kütləsini əhatə edir. Xüsusilə də Dağlıq Qarabağ probleminin həlli istiqamətində Azərbaycanın mövqeyi xeyli güclənib. Danışıqlardan boyun qaçıran Ermənistan masaya əyləşdirilib. Ermənistan rəhbərliyinin danışıqlar formatını dəyişmək kimi cəhdləri tam fiaskoya uğramış oldu. Belə şəraitdə hansısa tələblərlə mitinq keçirməyə ehtiyac varmı?

Hakimiyyətin kursunu dəstəkləyən Ana Vətən Partiyasının sədri, millət vəkili Fəzail Ağamalı "Bakı Xəbər"ə açıqlamasında bildirdi ki, indiki şəraitdə hansısa mitinqin keçirilməsinə zərurət görmür: "Azərbaycan demokratik ölkədir. Hər bir siyasi qurumun fikirlərini ifadə etmək kimi söz demək, sərbəst toplaşmaq azadlıqları var. Bütün bu azadlıqlar Konstitusiya ilə qorunur və müvafiq qanunlarla tənzimlənir. Formallıq xatirinə mitinq keçirmək, lazım olan sayda adam toplaya bilməmək istənilən siyasi qurum üçün başucalığı gətirmir. Hazırda Azərbaycan çox həssas məqama qədəm qoyur. Ermənistan öz işğalçılıq siyasətini açıq şəkildə həyata keçirmək istəyir. Azərbaycana qarşı yeni təhdid bəyanatları səsləndirilir. Dünyanın aparıcı dövlətləri Ermənistanın müharibəyə çağırış ritorikasına lazımi cavab vermirlər. Belə şəraitdə Azərbaycandakı qüvvələrin daha da sıx birləşməsinə zərurət yaranır. Eyni zamanda, sosial təminatı zəif olan təbəqəyə yönəlik islahatlar get-gedə dərinləşir. Ölkə başçısı bununla bağlı müvafiq fərmanlar verir".

F.Ağamalıya görə, ölkəmizin bu uğurlu siyasətini istəməyən qüvvələr hərəkətə keçirlər:

"Belə bir situasiyada ayrı-ayrı xarici ölkələrə bağlı olan və kifayət qədər reputasiyaları zədəli olan siyasi dairələr ölkədə qarışıqlıq yaratmaq istəyirlər. Bu, təhlükəli xarakter də ala bilər. Hesab edirəm ki, Bakı meriyası mitinqə icazə verməməkdə tam haqlıdır. Bunu mənim sadaladığım və bilmədiyim başqa səbəblərlə izah etmək olar. Fikir verdinizsə "Diqlas"da baş verən yanğından sonra Milli Şura və digər radikal qüvvələr dərhal mitinq keçirmək qərarını verdilər. Məqsəd tam bəlli idi - həmin narazı sahibkarları prosesə cəlb etmək. Amma Azərbaycan hakimiyyəti ziyan dəyən sahibkarların yanında oldu. Yekun olaraq demək istəyirəm ki, mitinqi keçirmək üçün ciddi əsaslar və sosial sifariş olmalıdır. Mən Azərbaycanda bu amilləri görmürəm".

Mitinq keçirmək istəyən müxalif Müsavat Partiyasının başqan müavini Səxavət Soltanlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hətta ölkədə islahatlar getsə belə, mitinq keçirmək olar: "Biz bunu dünyanın inkişaf etmiş ölkələrində də görürük. Azərbaycandan qat-qat yaxşı irəliləyişlərə imza atan ölkələrdə niyə mitinqlər olur? Hesab edirəm ki, Azərbaycanda islahatlar aparılsa belə, kifayət qədər həlli mühüm olan problemlər var. Biz bunu keçirmək istədiyimiz mitinqin şüarlarında da qeyd etmişdik. Siyasi məhbusların azad edilməsini, söz və mətbuat azadlığının tam təmin olunmasını, məhkəmə sistemində islahatların aparılmasını tələb edirdik. Hesab edirik ki, hökumət deyilən istiqamətlərdə problemlərin həllinə başlasa belə, bu, mitinqə icazə verilməməsi üçün əsas ola bilməz. Hakimiyyət hesab edir ki, ölkədə islahat gedir, mühüm problemlər həll olunur, onda icazə versinlər. Məntiqlə həmin vaxt mitinqə adam gəlməməlidir. Narazı adamlar isə gələcək. Bununla ölkədəki islahatların hansı effekt verdiyini müəyyənləşdirmək olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda bələdiyyə seçkiləri niyə Türkiyədəki kimi canlı keçmir...

**Məlum olduğu kimi, martın 31-i Türkiyədə bələdiyyə seçkiləri keçirilib. Ümumi olaraq, seçkilərdə hakim Ədalət və İnkişaf Partiyası (AKP) və Milliətçi Hərəkat Partiyasının (MHP) formalaşdırdığı Cümhur İttifaqı 51,62% səs (AKP - 44,32%, MHP - 7,31%), toplayaraq əsas rəqibi Cümhuriyyət Xalq Partiyası (CHP) və İYİ Partiyasının formalaşdırdığı Millət İttifaqından (37,56% - CHP - 30,11%, İYİ - 7,45%) üstün olub.**



*"Bələdiyyələrə real səlahiyyətlər verilməli, onların fəaliyyət dairəsi genişləndirilməlidir"*

***İlqar Hüseynli:*** *"Azərbaycandan fərqli olaraq, Türkiyədə bələdiyyələr yerli icra orqanlarından asılı deyil"*

Lakin əldə olunan bu üstünlüyə baxmayaraq, hakim partiya İstanbul, Ankara, İzmir, Antalya, Adana kimi böyük şəhərlərdə bələdiyyə sədrliyini qazana bilmədi. Baxmayaraq ki, 90-cı illərin ortalarından mütəmadi olaraq hakim partiya Ankara və İstanbul kimi böyük şəhərlərə nəzarət edib. O baxımdan bu şəhərləri itirmək onun üçün əsl sürpriz oldu. Əgər seçkilərə qədər hakim partiya Türkiyədə olan 81 bələdiyyədən 49-na nəzarət edirdisə, son seçkilərdə partiya cəmi 41 bələdiyyə üzrə qalib gəlib.

Məsələnin maraqlı tərəfi odur ki, Türkiyədə bələdiyyələrə böyük maraq var. Bələdiyyə seçkilərində əldə olunan nəticələr partiyanın sonrakı siyasi uğurlarına öz təsirini göstərir. Bəlkə də bundandır ki, bələdiyyə seçkilərinə maraq böyükdür. Namizədlər hər səs uğrunda ciddi mübarizə aparırlar. Budəfəki bələdiyyə seçkiləri çox gərgin keçməsi, səs-küylü olması ilə yadda qaldı. Həm də ona görə ki, İstanbul və Ankarada seçkinin nəticələri fərqli oldu.

Azərbaycanda da 1999-cu ildən bələdiyyə seçkiləri keçirilir. Ancaq Türkiyədən fərqli olaraq, Azərbaycanda bələdiyyə seçkiləri çox passiv keçir və seçici fəallığı aşağı olur. Namizədlər bununla bağlı xüsusu aktivlik göstərmirlər. Təbliğat kampaniyası dövründə və seçkidən sonra xüsusi fəallıq nəzərə çarpmır. Ən başlıcası isə, Azərbaycanda ictimaiyyətin bələdiyyə seçkilərinə marağı aşağıdır. Maraqlıdır, niyə Türkiyədə keçirilən bələdiyyə seçkilərinə bənzər seçki həyəcanı Azərbaycanda müşahidə olunmur?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynli bunu bir sıra faktorlarla ələqələndirdi: "Məsələ ondadır ki, Azərbaycandan fərqli olaraq, Türkiyədə bələdiyyələr yerli icra orqanlarından asılı deyil. Türkiyədə bələdiyyələrin avtonom fəaliyyət imkanları var. Eyni zamanda, bələdiyyə büdcələri yetərli təminat imkanlarına malikdir. Türkiyə bələdiyyələri büdcədə paya malikdirlər. Dövlət büdcəsi müzakirə olunarkən bələdiyyələr ələhiddə büdcə payına malik olurlar. Eyni zamanda, Türkiyədə bələdiyyələrin həyata keçirdikləri xidmətlərin sayı Azərbaycandakı mənzil-istismar sahələrinin, yerli bələdiyyələrin həyata keçirdikləri xidmətlərin sayından qat-qat çoxdur. Hətta nikah mərasimlərindən tutmuş, dəfn mərasimlərinin təşkilinə qədər işləri bələdiyyələr həyata keçirirlər. Türkiyədə bələdiyyə xəstəxanaları, məktəbləri və digər sosial xidmət sahələri var. Xüsusi infrastruktur obyektləri bələdiyyələrə gəlir gətirir. Bələdiyyə turizmi böyük gəlir gətirir. Buna görə də Türkiyədə bələdiyyələr xalqa yetərincə xidmət edə bilirlər. Azərbaycanda isə bunların heç biri yoxdur. Azərbaycanda bələdiyyələr icra qurumlarının yedəyində gedir. Ölkədə bələdiyyələr yerli icra orqanlarının əlavə qurumuna çevrilib. Belə olan halda, əlbəttə ki, vətəndaşların bələdiyyələrdən gözləntiləri böyük ola bilməz. Nə vaxta qədər ki, bu problemlər həll edilməyib, Azərbaycanda bələdiyyə seçkilərinə maraq aşağı olacaq. Türkiyədəki kimi namizədlər mübarizə aparmayacaq və s. Ona görə də bələdiyyələrə real səlahiyyətlər verilməli, onların fəaliyyət dairəsi genişləndirilməlidir".

***Vidadi ORDAHALLI***

# Xəzərin Azərbaycan sektorunda alman şirkəti ilə Azərbaycanın daha böyük enerji əməkdaşlığına start verilir

**Azərbaycanla dərinləşən enerji əməkdaşlığı fonunda Qərb şirkətləri Xəzərin ölkəmizə məxsus sektorunda bu istiqamətdə yeni tərəfdaşlıq əlaqələrinin qurulmasına da xüsusi maraq göstərməkdədir. Proseslərin gedişi göstərir ki, birgə fəaliyyət nəticəsində Azərbaycan Qərbdən Xəzərin ölkəmizə məxsus sektoruna daha çox sərmayə cəlb edə biləcək.**

Ümumiyyətlə, bu sahədə əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi gözlənir.

Bu arada qeyd edilən səpkidə daha bir maraqlı məqam BP şirkəti ilə bağlıdır. Belə ki, BP şirkəti Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi layihəsində Amerikanın "ExxonMobil" və "Chevron" şirkətlərinin paylarının alınması məsələsinə baxmağa hazır olduğunu açıqlayıb. Qeyd edək ki, ötən ilin dekabr ayında "ExxonMobil" "Azəri-Çıraq-Günəşli"dəki 6,79%-lik payını, "Chevron" isə layihədəki 9,57%-lik və Bakı-Tiflis-Ceyhan boru kəmərindəki 8,9%-lik payını satmaq niyyətində olduqlarını bildirmişdi.

BP qrupunun baş icraçı direktoru Robert Dadli həmin payları ala biləcəklərini qeyd edib: "Azəri-Çıraq-Günəşli"dəki iştirakımızı bəyənirik. Hesab edirəm ki, payımızın artırılması imkanı yaranarsa, bu bizim üçün təbii seçim olar, lakin hər şey qiymətdən asılı olacaq". Bununla belə, R.Dadli qeyd edib ki, "Exxon" və "Chevron" hələlik paylarını qiymətləndirir və satışla bağlı tender başlamayıb. Xatırladaq ki, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında saziş 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də blokun 2050-ci ilədək işlənməsinə dair yenidən işlənmiş saziş imzalanıb. Bununla yanaşı, Qərb şirkətləri Xəzərdə hasil olunan Azərbaycan qazı ilə də bağlı yeni əməkdaşlıqda maraqlı tərəf qismində çıxış edirlər. Bu xüsusda alman şirkəti olan "Vista Holding Group AG"nin Direktorlar Şurasının sədri Karl-Henrix Qasser bildirib ki, onun şirkəti təbii qazın Avropaya idxalına böyük investisiyalar qoymağı planlaşdırır və bu barədə Azərbaycanla danışıqlar aparır. Onun sözlərinə görə, Almaniyanın enerji təchizatının diversifikasiyası problemdir və almanların bir çox nəslinə toxunur. Qasser vurğulayıb ki, Almaniya üçün təbii qaz rəqabətə davamlı qiymətlər üzrə tapılmalıdır və onun şirkəti indi bu sferada əlverişli layihələrin axtarışı ilə məşğul olur.

Alman şirkətinin investisiyaları haqda nəşrin sualına cavab verərkən Karl-Henrix Qasser deyib: "Biz bütün Avropa üzrə təbii qaz infrastrukturunun formalaşmasında çox maraqlıyıq. Biz Xəzər dənizində böyük həcmdə qaz ehtiyatlarının olması ehtimal edilən yataqlar üzrə Azərbaycanla danışıqlar aparırıq. Biz Azərbaycanda Xəzər dənizində, Bakıdan cənub-şərqdə reallaşdırılan layihədə təmsil olunuruq və həmin layihəyə sərmayə qoyuruq. Bundan sonra bu layihə haqda mən sizə yalnız ilin sonunda danışa biləcəyəm". Qoyulan yeni sərmayələr isə Azərbaycana daha çox enerji, o cümlədən qaz hasil etməyə imkan verir. Elə bu fonda Asiya İnkişaf Bankının "Asian Development




Outlook 2019" hesabatında qeyd olunur ki, Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağının ikinci fazasından hasilatın artması 2020-ci ildə Azərbaycanın ixracını 1% artıracaq: "Şahdəniz- 2" yatağında qaz hasilatının daha da artması 2020-ci ildə ixracın 1% artmasına səbəb olacaq".

Qeyd edək ki, "Şahdəniz- 2" ilk dəfə olaraq Xəzər qazını Avropa bazarına çıxaracaq "Cənub Qaz Dəhlizi"nin başlanğıc nöqtəsidir. Sabit pik hasilat zamanı bu layihənin mövcud hasilat həcmlərinə ildə16 milyard kubmetr qaz əlavə edəcəyi gözlənir. Ötən il iyulun 30-da "Şahdəniz" "Bravo" platformasından ilk qaz əldə olunub. Hazırda "Şahdəniz- 2" qazı genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri və TANAP vasitəsilə Türkiyə bazarına çatdırılır. Baş verənləri şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirir ki, ümumiyyətlə, Qərbin təbii qazla təmini baxımından Azərbaycanın rolu daha da artacaq. Özü də bu, neft hasilatını azalması fonunda olduqca mühümdür: "Azərbaycanda neft hasilatının pik nöqtəsi 2010-cu ildə qeydə alınıb və ölkədə 50,8 milyon ton neft hasil olunub. Ötən il ilk dəfə olaraq neft hasilatının azalma tempi dayanıb və 2017-ci illə eyni səviyyədə - 38,7 milyon ton olub. Ümumilikdə isə 2010-cu illə müqayisədə 2018-ci ildə neft hasilatı 12,1 milyon ton azalıb. Bu azalma 2019-cu ildə də davam edəcək. Bu mənada, BP-nin Azərbaycanda neft hasilatının azalması ilə bağlı proqnozu hökumətin proqnozu ilə üst-üstə düşür. Energetika Nazirliyi hesab edir ki, hasilat 37,9 milyon tona qədər azalacaq. Bu proses kommersiya baxımından neft hasilatı rentabelli olana qədər davam edəcək. Hazırda ARDNŞ üçün neftin 1 barreli 10 dollardan aşağıya, BP üçün isə bundan iki dəfə ucuz qiymətə başa gəlir. Ümumiyyətlə, BP bu il Azərbaycan neftinin və kondensatının 82, ümumi qazın 79, kommersiya qazının isə 69 faizini çıxarmağa hazırlaşır".

İ.Şaban hesab edir ki, 2025-ci ilədək Azərbaycanda kondensat hasilatı özünün ən pik həddinə çatacaq: "Azərbaycanda 2018-ci ildə 19,2 milyard kubmetr əmtəəlik qaz hasil edilib. Söhbət satış üçün nəzərdə tutulan kommersiya qazından gedir. Təqribən 4 il sonra ölkəmiz bu həcmləri 90 faizə, yəni 35 milyard kubmetrə qədər artırmaq imkanı əldə edəcək. Növbəti 10 ildə Azərbaycan özünün ən böyük qaz dövrünə qədəm qoyacaq. Beləliklə, ölkədə kommersiya qazının hasilatı 2 dəfəyədək artacaq". Bu isə ölkəmizdən Avropaya daha çox qaz ötürülməsinə imkan verəcək.

***Nahid SALAYEV***

## Banklar Assosiasiyası məsələyə necə baxır...

# "Diqlas" zərərçəkənlərinin əvvəlki bank borclarına güzəştin tətbiq mexanizmi...

***Elçin Həsənov: "Cərimələrin bağışlanması məsələsi nəzərdən keçiriləcək"***

**Məlum olduğu kimi, "Diqlas" ticarət mərkəzində baş verən yanğın hadisəsinə görə sahibkarlara küllü miqdarda zərər dəydi. Bu insanlara dəyən zərərin aradan qaldırılması üçün dövlət tərəfindən də dəstək göstəriləcək. Eyni zamanda, banklar da zərərçəkən sahibkarlara yardım edəcək.**




*"Banklar tərəfindən zərərçəkən sahibkarlara əlavə kreditlərin verilməsinə də baxılacaq"*

Belə ki, "Diqlas" ticarət mərkəzində baş verən olayla əlaqədar ölkə Prezidentinin çağırışına cavab olaraq, yanğın nəticəsində zərərçəkən sahibkarlara kömək göstərilməsi məqsədilə banklarda kredit borcu olan sahibkarların kreditlərinin restrukturizasiya olunması, kreditlərə görə hesablanmış cərimələrin (peniyaların) bağışlanması, faizlərin aşağı salınması məsələləri Azərbaycan Banklar Assosiasiyasının (ABA) Rəyasət Heyətinin bu günlərdə keçirilən iclasında müzakirə olunub.

Qeyd edilənə görə, "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın zamanı zərərçəkmiş sahibkarların Azərbaycan Banklar Assosiasiyasının üzv bankları tərəfindən kreditlərinin restrukturizasiya olunması, hesablanmış cərimələrin (peniyaların) silinməsi, faizlərin aşağı salınması, eləcə də onlara müraciətləri əsasında, qaydalar çərçivəsində yeni kreditlərin verilməsi və bu tədbirlərin icrasına dərhal başlanması ilə bağlı qərar qəbul edilib.

Sahibkarların banklara olan borcu hansı mexanizm əsasında müəyyən olunacaq? Güzəştlər məbləğdən asılı olaraq tətbiq olunacaq, yoxsa bu, zərərlə üzləşən hər bir sahibkara tətbiq olunacaq? Bu istiqamətdə nə kimi araşdırmalar aparılıb?

**ABA-nın təmsilçisi Elçin Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bankların tətbiq edəcəyi güzəştlər sırasında banklarda kredit borcu olan həmin sahibkarların kreditlərinin restrukturizasiya olunması, kreditlərə görə hesablanmış cərimələrin (peniyaların) bağışlanması, faizlərin aşağı salınması məsələləri var.** Eyni zamanda, cərimələrin bağışlanması məsələsi nəzərdən keçiriləcək, bundan əlavə, sahibkarların istəyinə, situasiyasına, tələblərinə, həmçinin də bankların imkanlarına uyğun olaraq, kreditlərin müddəti uzadılacaq. Həm də borclar hesablanacaq və faizlərə baxılacaq. Banklar tərəfindən zərərçəkən sahibkarlara əlavə kreditlərin verilməsinə də baxılacaq. Banklar Assosiasiyasının qərarına əsasən, bu məsələni fərdi şəkildə nəzərdən keçirəcəklər. Yəni belə fərqli faiz yoxdur ki, 5 faiz aşağı olacaq, 5 faiz yuxarı olacaq. Situasiya fərqli olduğu üçün, yanaşma da ona uyğun olacaq" - deyə E.Həsənov qeyd etdi.

***İradə SARIYEVA***

**Yaxın perspektivdə, Cənubi Qafqaz da daxil olmaqla, böyük bir məkanda geosiyasi vəziyyət əhəmiyyətli dərəcədə dəyişə bilər. Bütün bunlara əsas səbəb isə ABŞ və Türkiyə arasında artan ziddiyyət, hətta sonuncunun NATO-dan çıxarılma risqinin artmasıdır. Hesab edilir ki, ABŞ istəyinə nail olmasa, Türkiyənin NATO-dan kənarlaşdırılmasına çalışacaq və belə vəziyyətdə Ankaranın Moskva ilə yaxınlaşması qaçılmaz olacaq.**

# Türkiyə və Rusiyanın "Troya anlaşması", Azərbaycan və Ermənistan üçün yeni geosiyasi vəziyyət, ABŞ sərtləşir...

Ankara və Moskva arasında yaxınlaşma, xüsusən də hərbi sahədə əməkdaşlığın inkişafı isə öz növbəsində Yaxın Şərq, Cənubi Qafqaz, Mərkəzi Asiya kimi mühüm məkanlarda geosiyasi vəziyyəti əhəmiyyətli dərəcədə dəyişmək iqtidarındadır. Türkiyənin Rusiya ilə işbirliyi şəraitində həmin geosiyasi məkanlarda təsir dairəsinin xeyli dərəcədə artması proqnozlaşdırılır. Hadisələrin bu səpkidə inkişafı Azərbaycanın maraqlarına uyğun gəlsə də, Ermənistan hazırda prosesdən bərk narahatlıq keçirir. Erməni ekspert Ruben Çaxalyan qeyd edir ki, Moskva-Ankara yaxınlaşması İrəvan üçün müsbət heç nə vəd etmir: "Ankara Moskva ilə yaxınlaşmaqla bir çox üstünlüklər və təsir rıçaqları qazanır. Bundan Ermənistana hansısa fayda gəlməyəcəyi isə dəqiqdir. Çünki Türkiyənin Ermənistan siyasəti bəllidir".

Rusiya - Türkiyə yaxınlaşmasını şərtləndirən səbəb isə S-400 raket kompleksləri ilə bağlı böyüyən qalmaqalldır. Rusiya ilə Türkiyənin hərbi əməkdaşlığını həzm edə bilməyən ABŞ sonuncuya təzyiq göstərməkdə davam edir. ABŞ dövlət katibi Mayk Pompeo yenidən iki ölkə arasında imzalanan S-400 raket komplekslərinə dair müqavilənin dağıdıcı nəticələrinin olacağını deyib. ABŞ Dövlət Departamentinin mətbuat katibi Robert Palladino da məsələ ilə bağlı açıqlama verib. Bildirib ki, Pompeo bölgədəki təktərəfli türk hərbi hərəkatının potensial təhlükə daşıdığını deyir.

ABŞ-ın NATO-dakı daimi nümayəndəsi Key Beyli Hatçison isə daha sərt mövqe sərgiləyərək, Türkiyənin NATO-dan çıxarıla biləcəyini vurğulayır:"Türkiyəni, Rusiyanın S-400 sistemlərinin alınmasından imtina etdiyi təqdirdə NATO üzvü kimi görmək istəyirik. ABŞ administrasiyası Türkiyəni NATO üzvü kimi görmək istəyir, amma bunun üçün ölkə öz ərazisində S-400 sistemlərinin yerləşdirilməsinə imkan verməməlidir. Çünki rus sistemləri vasitəsilə F-35 bombardmançılarının məlumatları ötürülə bilər". Xatırladaq ki, daha əvvəl ABŞ-ın vitse-prezidenti Türkiyəni S-400 və NATO arasında seçim etməyə çağırmışdı: "Türkiyə seçim etməlidir. O, tarixin ən müvəffəqiyyətli hərbi ittifaqında əhəmiyyətli partnyor kimi qalmaq istəyirmi, yoxsa belə düşünülməmiş qərarları - ki, bizim ittifaqımızı pozur - qəbul edərək bu əməkdaşlığın təhlükəsizliyinə risq etmək istəyir".



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın köməkçisi Fuad Oktay Mayk Pensin Türkiyə ilə bağlı son bəyanatına sərt cavab verib. O, ABŞ-ın artıq qərar verməli olduğunu bildirib: "ABŞ artıq qərar verməlidir. Türkiyənin müttəfiqi olaraq qalmaq istəyir, yoxsa NATO üzrə müttəfiqinin düşmənlərinə qarşı müdafiəsini baltalamaq üçün terrorçularla əməkdaşlıq edərək dostluğumuzu risqə atmaq istəyir?". Türkiyə Xarici İşlər Nazirliyinin başçısı Mövlud Çavuşoğlu isə bildirib ki, heç kim Ankaranı Rusiya və Qərb arasında seçim etməyə məcbur edə bilməyəcək. Çavuşoğlu daha əvvəl söyləyib ki, Rusiyanın S-400 sistemlərinin alınması məsələsi bağlanıb.

Qeyd edək ki, Rusiya rəsmiləri də Türkiyənin S-400 müqaviləsindən imtina etməsi ilə bağlı narahat olmadıqlarını dilə gətirib. Rusiya baş nazirinin köməkçisi Yuri Borisov bu xüsusda bildirib: "Rusiya Türkiyənin S-400 zenit raket komplekslərindən imtina etməsinə görə narahat deyil". Onun sözlərinə görə, hazırda S-400 komplekslərinin satışına dair imzalanan müqavilə mərhələlər üzrə olduğu kimi davam edir: "Hələlik, Türkiyə imzalanan müqavilənin öhdəliklərinə sadiqdir və bunları dəqiq şəkildə yerinə yetirir. Geri qalan hər şey dedi-qodudur. Buna görə də, hələ ki, narahatlığımız yoxdur".

Bu arada məlum olub ki, tezliklə Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanı qonaq edəcək. Liderlər görüş çərçivəsində "Bolşoy teatr"da "Troya" tamaşasını izləyəcək. Qeyd edək ki, Putin və Ərdoğan 2019-cu ildə artıq 2 dəfə görüşüblər. Bundan əvvəl Türkiyə prezidenti yanvarın 23-də Putinlə görüşmüşdü. Onun ikinci səfəri fevralın 14-də Soçidə baş tutmuşdu. Liderlərin NATO və ABŞ-ın dərin narahatlığına səbəb olan S-400 zenit raket kompleksinin alış-verişi ilə bağlı yekun açıqlama verəcəyi bildirilir. Onu da qeyd edək ki, S-400 zenit raket komplekslərinin bəzi detal və avadanlıqları Türkiyəyə təhvil verilib. "Yeni Şəfəq" öz mənbələrinə istinadla sözügedən detalların silahın inteqrasiyası üçün zəruri, kiçik, ancaq əhəmiyyətli parçalar olduğunu yazıb.

***Tahir TAĞIYEV***

**Türkiyədəki bələdiyyə seçkilərində yaranan mənzərə, demək olar ki, dünya mediasının əsas maraq göstərdiyi mövzular sırasındadır. Seçkinin nəticələri ilə yanaşı, seçkidən sonra nələrin baş verə biləcəyi də geniş təhlil edilir. Əsasən də hakim partiya ətrafında ciddi proseslərin baş verə biləcəyi proqnozlaşdırılır. Təhlillər göstərir ki, vəziyyət AKP-nin xeyrinə olmayan tərzdə dəyişə bilər.**

# Türkiyənin hakim partiyasından qopmaların başlayacağı iddiası...

## *Qabil Hüseynli: "AKP-dən qopmalar... partiya yaratmasından sonraya təsadüf edəcək"*




*"Hesab edirəm ki, AKP-nin zəifləməsinə ən bariz sübut son seçkilər oldu"*

Türkiyə mediasında bildirilir ki, Ankara, İstanbul, İzmir və digər iri şəhərlərdə müxalifət partiyalarının bələdiyyə seçkilərində uğur əldə etməsi Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlunu da hərəkətə keçirib. Onun aktiv siyasətə qayıdacağı istisna olunmur. Hətta bildirilir ki, seçkilərin nəticəsi AKP-dən qopmalar və yeni siyasi partiyanın yaranmasına da yol aça bilər. Qeyd edilir ki, yeni qurulacaq partiyada Davudoğlu ilə yanaşı, keçmiş xarici işlər nazirləri Ali Babacan, Bülənd Arınc, Abdulla Gül, Mehmet Şimşək, keçmiş daxili işlər naziri Bəşir Atalay, keçmiş idman naziri Suat Kılıç və digər sabiq dövlət rəsmiləri də yer alacaq.

Seçkilərdən sonra AKP-dən baş verə biləcək "yarpaq tökümünü" real saymaq olarmı?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İstanbuldakı nəticələr tanınmasa, CHP namizədinin qalib kimi əli sıxılmasa, bu, cəmiyyətdə böyük narazılıqla qarşılanacaq: "Eyni zamanda, cəmiyyətin dalğalanmasına, xalqın böyük hissəsinin AKP-yə qarşı çıxmasına səbəb olacaq. Saxta yolla İstanbulu ələ keçirməyə çalışsalar, seçkilərin nəticəsi heç beynəlxalq aləmdə də tanınmayacaq. Bununla da Türkiyəyə qarşı dünya güclərinin böyük hücumu başlayacaq. Artıq iqtisadi təzyiqlər var. İnflyasiya durmadan artır, lirə dəyərini itirir. Ərdoğan köhnə sevdasından əl çəkməyəcəyi təqdirdə ölkəni düşünən adamlar addım atmağa məcbur qalacaqlar. Vəziyyət belə davam etsə, yəni Ərdoğanın aşırı Rusiya sevdası Türkiyənin NATO-dan çıxarılması ilə nəticələnə bilər. Bu çox böyük itki ola bilər, eyni zamanda, Türkiyə üçün misli görünməmiş qorxulu nəticələrə gətirib çıxarar. Bu səbəbdən də vaxtilə AKP-nin görkəmli simaları olmuş Əhməd Davudoğlu kimi adamlar artıq fəallaşmağa başlayıblar. Bir sıra görkəmli simaların aktivləşdiyi hiss edilir. Onların hamısının keçmişi AKP ilə bağlıdır və cəmiyyət arasında böyük nüfuza sahibdirlər. Ə.Davudoğlu çevik və peşəkar diplomatdır. Sabiq baş nazir Qərb dairələri və ABŞ da ciddi dəstəkləyir. AKP-dən qopmalar onun partiya yaratmasından sonraya təsadüf edəcək. Yəqin ki, yeni yaranan partiyanın sədri də o olacaq.

Sonra vaxtilə AKP-dən istefa vermiş bir çox tanınmış sima ona birləşəcək və nəticədə onlar da hakim partiyada olan tərəfdarlarını yeni partiyaya dəvət edəcəklər. Hesab edirəm ki, AKP-nin zəifləməsinə ən bariz sübut son seçkilər oldu".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan yeni aprel xofunda - 2016-da Azərbaycan Ordusunun cəmi 20 faizi Ermənistanla vuruşmuşdu...

**Üzərindən artıq 3 il keçən aprel döyüşlərinin yenidən təkrarlana biləcəyi bu gün Ermənistanda daha çox narahatlıq mənbəyinə çevrilməkdədir. Çünki Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli Ermənistanın qəbuledilməz mövqeyi üzündən getdikcə daha çox dalana dirənir.**

Məhz belə vəziyyətdə Azərbaycan ərazi bütövlüyünün bərpasının güc yolu ilə təmin edilməsinin mümkünlüyünü ən yüksək səviyyədə bəyan edir. Hadisələrin belə səpkidə inkişafının istisnalıq təşkil etmədiyi bir şəraitdə Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Vyana görüşündən sonra baş verənlər İrəvanda narahatlıq yaradıb.

Ermənistanı qorxuya salan Azərbaycan Prezidentinin aprelin 2-də verdiyi bəyanatdır.

Xatırladaq ki, Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsini ziyarət edən Ali Baş Komandan bəyan etdi ki, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. İndi erməni şərhçi Naira Ayrumyan iddia edir ki, Azərbaycan müharibəyə hazırlaşır: "Azərbaycan prezidenti son bəyanatı ilə müharibənin ikinci mərhələsini elan etmiş oldu. Bəs Ermənistan nə edir, biz sülh nizamlanmasına davam edəcəyikmi, yoxsa məğlubiyyətdən qaçmaq üçün indidən hazırlaşacağıq?". Ayrumyan Rusiya prezidentinin Bakı və İrəvana zənglərindən də bəhs edib. Onun iddiasına görə, Rusiya münaqişə ilə bağlı təşəbbüsü əldən verə biləcəyindən narahatdır: "Rusiya Qarabağda yeni aprel müharibəsi ssenarisinin baş verə biləcəyini də istisna etmir".

Ayrumyanın narahatlığı Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun açıqlamaları fonunda isə heç də əbəs sayılmaya bilər. Nazir vurğulayır ki, savaşın yenidən başlanması istisna deyil və aprel döyüşlərində düşmən ordumuzun gücünü görüb: "Aprel döyüşləri zamanı Ermənistan səfərbərlik elan etmişdi. İrəvandan qoca kişilər Qarabağa yollanırdılar. Amma heç gəlib Qarabağa çıxa bilmədilər". O vurğulayıb ki, aprel döyüşləri zamanı iki ordu üz-üzə gəldi və Ermənistan ordusu darmadağın oldu: "Aprel döyüşlərinin əsas nəticəsinə əsasən, Ermənistan ordusu darmadağın oldu, Azərbaycan ordusu daha bir təcrübəyə yiyələndi və xalqımız arasında vətənpərvərlik hissi güclənməyə başladı. Azərbaycan ordusunda həyata keçirilən islahatların nəticəsi olaraq, orduda nizam-intizam və vətənpərvərlik ruhu artdı". Z.Həsənov vurğulayıb ki, 2016-cı ilin aprelində Ermənistanın bütün ordusu ilə Azərbaycan Ordusunun yalnız 20 faizi döyüşüb: "Biz indiki vaxtda müharibə şəraitində olan dövlətlərin təcrübəsindən istifadə edirik. Biz döyüş hazırlığında Türkiyənin təcrübəsindən istifadə edirik. Çünki qardaş ölkənin bu sahədə böyük təcrübəsi var". O bildirib ki, Azərbaycan ordusunun silah-sursatla bağlı heç bir problemi yoxdur: "Biz hər an döyüşlərə başlaya bilərik. Çünki biz silah-sursatla tam təmin olunuruq. Bizdə yüksək səviyyədə hazırlanmış silahlar, pilotsuz uçan aparatlar var. Mindən çox üç il qabaq çəkdiyimiz gördük, indi bu gün də vətənpərvərlik oldu"

Erməni vəkil Norayr Norikyan isə bildirir ki, Azərbaycan aprel döyüşlərini təkrarlamaq istəsə, bu, ölkəsi üçün müsbət heç nə vəd etmir: "Aprel döyüşlərinin əsas səbəbi bizim 94-cü ildən sonra arxayınlığa düşməyimiz oldu. Azərbaycan bundan sonra məğlub sindromundan xilas ola və müharibəyə əl ata bilməz, deyə bizim içimizdə bir əminlik yaranmışdı. Amma bu əminlik bir döyüşlə alt-üst oldu". Onun sözlərinə görə, 2016-cı ildə baş verən hadisələrdən sonra hərbi doktrinanın və milli təhlükəsizlik strategiyası konsepsiyasının dəyişdirilməsi və bu gün mövcud çağırışlara uyğunlaşdırılması üçün addımlar atılmayıb: "Artıq bu gün Azərbaycan və onun xalqı məğlubiyyət sindromundan mənəvi psixoloji cəhətdən xilas ola bilib. Onlar hesab edir ki, aprel döyüşlərində Ermənistana dağıdıcı zərbə vurublar. Hazırda Ermənistanın hərbi doktrinası dəyişdirilməli və müasir çağırışların tələblərinə uyğunlaşdırılmalıdır. Yəni nə qədər "İsgəndər" istəyirsiniz əldə edin, əsas hərbi doktrinanı dəyişmək lazımdır".

Ermənistanın "1-in.am" saytı aprel döyüşlərinin sarsıdıcı zərbələrinin bu gün də davam etdiyini yazır: "Ermənistan və Qarabağda olanlar üç il qabaq bu günlərdə ölüm-dirim savaşındaydı. Dördgünlük aprel savaşı idi, nəticədə insan tələləri qırıldı, xeyli gənc həlak oldu, Dağlıq Qarabadakı rejimin varlığı isə ümumiyyətlə sual altında qalmışdı. Havada Stepanaketin Xankəndiyə çevrilməsi dolaşırdı. Biz üç il qabaq əmin olduq ki, burada nəsə yanlışdır, düzgün deyil. Anladıq ki, bizim özüllərimiz çürüyüb və biz bir dövlət kimi illər boyu saxta və yalan yolla irəliləmişik. Bütün bunlardan danışmaq asan deyil, çünki ödənilən bədəl yetərincə yüksəkdir. Faktiki olaraq, keçmişin səhvləri ən qiymətli və müqəddəs dəyərlə ödənildi - gənc oğlanların həyatıyla.

İndi çoxları aprel savaşından elə asanlıqla danışır, adama elə gəlir ki, hər şey belə də olmalıydı, guya alternativlər yox idi, guya belə böyük qurbanlardan qaça bilməzdik. Əlbəttə, keçmişin girovuna çevrilmək lazım deyil, əksinə, keçmişdə buraxılmış səhvlərin nəticələrini aradan qaldırmalı və irəli getməliyik. Amma baş verənləri layiqincə dəyərləndirə bilmiriksə, necə aradan qaldırmalıyıq? Nəydi bu, bu nə fəlakət idi və Ermənistan niyə buna hazır deyildi?

Axı on illər boyu bizi inandırmışdılar ki, Ermənistan ordusu bölgədə ən bacarıqlı döyüş ordusudur, çalıb-çapırlar, eybi yoxdur, başlıcası budur ki, orduya silah alırlar, iddia edirdilər ki, seçkilərin saxtalaşdırılması xırda problemdir, başlıcası səngərlərin möhkəm olmasıdır. 2016-cı ildə bütün bunlar harada idi, axı aydınlaşdı ki, ordu elə də döyüş bacarıqlı deyil, silahlanma problemi isə savaşın ilk günündəcə hiss olundu. Serj Sarksyanın və Respublika Partiyasının vəd etdiyi təhlükəsizlik harada qaldı? Onlar təhlükəsizliyi belə təsəvvür edirlərsə, onda dünyagörüşlə bağlı ciddi problemləri var.

Aprel savaşı Serj Sarksyan üçün Pirr savaşıydı, o da Epir çarı kimi "döyüşdə qələbə çaldı, amma çox şey itirdi". Daha doğrusu, Ermənistanı itirdi. Bu mənada "qalib gəldi" ki, Azərbaycan atəşkəsə razılıq verdi. Savaş davam etsə idi, şübhəsiz, Sarksyan bu halda hakimiyyətsiz qalardı. Doğrudan da, o vaxt Azərbaycanın durdurulması üçün xeyli resurs və vəsait itirildi, bu həm də durumun hər an nəzarətdən çıxa biləcəyi əsəblər savaşıydı. 2016-nın aprel hadisələri ictimaiyyət üçün əsil soyuq duş, güclü təsiri hətta bu gün də keçməmiş möhkəm şillə idi. Biz aprel savaşından ibrət götürməyi və başa düşməliyik ki, ordunun dirəniş gücü və döyüş bacarığı təkcə ordunun problemi deyil. Ordu dövlətdən kəsilən yad orqanizm, ya da təcrid edilmiş hansısa struktur deyil.

Aprel savaşı o gerçəkliyin şahidiydi ki, ağır nəticələri hərbi cəbhədə üzə çıxan effektli və yaşamaq bacarığı olan dövlət qurmağı bacarmamışıq. Bax, ciddi-cəhdlə mənimsəməli və əzbərləməli olduğumuz ən böyük dərs də bundadır. Çürümüş dövlət sistemi və zəif iqtisadiyyatla çox duruş gətirə bilmərik. Ola bilsin, Ermənistan daha bir-iki dəfə, bəlkə də üç-dörd dəfə belə savaşları dayandıra bilər, amma beşinci dəfə mümkün olmaya da bilər. Xeyr, sizi qətiyyən ümidsizliyə salmaq istəmirəm. Sadəcə, ayıqlığa çağırıram". Erməni mediasında yer alan bu fikirlərdən də aydın görünür ki, aprel savaşı düşməni əhəmiyyətli dərəcədə silkələyib və onun şoku hələ də keçməyib. Onun fikrincə, Ermənistanın müdafiə naziri David Tonoyanın "sülh müqabilində ərazi" formatını "yeni müharibə, yeni ərazilər" formatı ilə əvəz olunmasına dair təxribatçı bəyanatı İrəvana yaxşı heç nə vəd etmir. Ekspert bildirib ki, bu, son zamanlar "sülh müqabilində ərazi" formatı haqqında çox danışılması, erməni tərəfindən isə hər hansı ciddi bir cavab olmamasının nəticəsidir.

Erməni politoloq danışıqlarda erməni tərəfini belə bir bəyanat verməyə məcbur edən halın olması barədə məsələyə aydınlıq gətirməkdə çətinlik çəkdiyini qeyd edir. Lakin vurğulayır ki, zəif tərəf olan Ermənistanın belə mövqe sərgiləməsi yeni Qarabağ savaşını tətikləyə bilər. Elə almaniyalı ekspert Uve Halbax da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlara münasibət bildirərkən yeni savaşı istisna etmir: "Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesinin bütün məntiqi, görüşlər, onun ardınca diplomatik və hərbi bəyanatlar münaqişənin nə dərəcədə mürəkkəb bir münaqişə olduğunu ortaya qoyur". Onun fikrincə, keçmişdə olduğu kimi, bu gün də tərəflər arasında ortaq keçid nöqtəsi yoxdur: "Baxmayaraq ki, tərəflərin müzakirə mövzusu və zəruri formatı olmadan bu mühitin yaradılmasına səy göstərilir, lakin çıxış yolu yoxdur". Almaniyalı ekspert hesab edir ki, bu gün Ermənistanın mövqeyi üzündən nəticəsi olan danışıqlar aparılmır və vasitəçilər də bu səbəbdən susducu bəyanatlar verməyə məcburdur: "Tərəflər dərk edir ki, ciddi nizamlanma prosesi getmirsə, həmişə olduğu kimi yeni hadisələr baş verə bilər. İndiki məqamda müsbət perspektivlərdən danışmaq çətindir. Elə bu da yeni savaşı istisna etmir".

Yeni savaşda isə düşmən aprel döyüşləri ilə müqayisədə daha sarsıdıcı zərbə alacaq. Digər tərəfdən, məhz həmin döyüşlər Azərbaycanın öz torpaqlarını işğalçı qoşunlardan təmizləmək qüdrətində olduğunu sübuta yetirdi. Hadisələr bir daha təsdiqlədi ki, işğalçıya yerini göstərmək üçün ən yaxşı təsir vasitəsi gücdür. Həmin döyüşlərdən sonra Ermənistan silahlı qüvvələrində çaxnaşma yarandı. Müdafiə naziri Seyran Ohanyan tutduğu vəzifədən azad edildi, işğalçı orduya rəhbərlik edən şəxslərin xeyli hissəsi işdən qovuldu. Bu hadisə işğalçı ordu və onun havadarları barəsində yaradılan mifi dağıtdı. Eyni zamanda, aprel döyüşləri Azərbaycan xalqının erməni işğalı altında olan torpaqların hərbi yolla azad ediləcəyinə daha çox inandığını sübuta yetirdi. Elə indinin özündə də Ermənistanı çox qorxudan məsələ Azərbaycanın yenidən gücə əl ata biləcəyidir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistanın Cənubi Qafqaz bölgəsinin "qara yarası" olduğunu artıq Avropa ölkələrinin alimləri, politoloq və ekspertləri də etiraf edirlər. Sülhün və birgəyaşayışın qənimi olan ermənilərin işğal altında saxladıqları Azərbaycan ərazilərində maddi mədəniyyət, dini abidələrə qarşı vandalizm hərəkətləri həyata keçirməsi xarici mütəxəssislərin diqqətindən qaçmır.**

# Qarabağda ermənilərin "mədəniyyət vandalizmi"nə amerikalı ekspertdən sərrast zərbə - Bakının ortasında 5 min kitabı olan erməni kilsəsi..





***Qasım Hacıyev:*** *"Vicdanlı Piter Teys Azərbaycanın ermənilərin, ermənilərin isə azərbaycanlıların dini və maddi-mədəni dəyərlərinə, abidələrinə göstərdiyi münasibəti müqayisə edərək erməni vandalizmi barədə yazmaya bilməyib"*

***Firdovsiyyə Əhmədova:*** *"Əcnəbi analitikin həqiqəti görməsi, onu öz yazısında qələmə alması erməni xislətinin, vandalizminin beynəlxalq aləmdə ifşa edilməsinə xidmət edir"*



Ermənistanın Qafqazda mövcud olan multikulturalizmi inkar etdiyini yazan dünyada tanınan analitik Piter Teys İspaniyanın "21-ci əsrin gündəliyi" adlı xəbər portalında dərc etdirdiyi "Ermənistanın Azərbaycana qarşı faşist təbliğatı" adlı məqaləsində erməni saxtakarlığı ifşa edilir.

P.Teys məqaləsində yazır ki, Azərbaycan erməni xalqına məxsus mədəni və dini abidələrin qorunmasına böyük diqqət ayırır: "Bakı şəhərinin mərkəzində 5500 nəşrdən ibarət kitabxananın olduğu erməni kilsəsi mövcuddur və bu dini abidənin qorunmasına Azərbaycan hökuməti tərəfindən kifayət qədər resurs ayrılıb. Burada bir haşiyəyə çıxmaq lazımdır ki, Azərbaycan Respublikasının ərazisinin 20 faizi məhz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, işğal olunmuş ərazilərdə mövcud olmuş, Azərbaycan xalqının qədim tarixini özündə əks etdirən bütün mədəni və dini abidələr dağıdılıb. İşğal nəticəsində Dağlıq Qarabağ və yeddi ətraf rayonda yaşayan azərbaycanlılar zorla öz doğma yurdlarından didərgin salınıb".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, P.Teys öz fikirlərində tamamilə haqlıdır. Q.Hacıyevin sözlərinə görə, Azərbaycanda tarixən mövcud olan tolerantlıq və multikulturalizm mühiti imkan verir ki, ölkəmizdə hər bir xalqa aid maddi-mədəni dəyər olduğu kimi qorunsun. İndiyə qədər Azərbaycanın heç bir erməni abidəsinə qarşı zorakılıq törətmədiyini, onların dövlət tərəfindən qorunma altına alındığını deyən Q.Hacıyevin bildirdiyinə görə, ancaq ermənilər həm işğal etdikləri Dağlıq Qarabağda və ətraf rayonlarda, eləcə də Qərbi Azərbaycanda azərbaycanlılara aid bütün maddi mədəniyyət, dini abidələri məhv edirlər. "Artıq ermənilərin əməlləri bütün dünyada elmi dəlillərlə sübut olunur, onları xarici ölkə alimləri ifşa edirlər. Ermənistanla Azərbaycanı müqayisə edən xarici ölkə analitikləri, politoloq və tarixçiləri hər iki ölkə arasında böyük fərqin olduğunu aydın şəkildə görürlər. Xarici mütəxəssislər görürlər ki, Bakının mərkəzindəki erməni kilsəsi dövlət tərəfindən qorunur, hərtərəfli diqqətdə saxlanır, erməni dini abidəsi kimi təqdim edilir, lakin işğal altında olan Dağlıq Qarabağda və ətraf rayonlarda bizə aid olan bütün abidələr məhv edilib, qalanları isə erməniləşdirilib. Bu, dünyanın gözü qarşısında baş verib. Bu gün vicdanlı insanlar meydana çıxıb ermənilərin multikulturalizm düşməni olduqlarını açıq şəkildə ortaya qoyurlar. Vicdanlı Piter Teys Azərbaycanın ermənilərin, ermənilərin isə azərbaycanlıların dini və maddi-mədəni dəyərlərinə, abidələrinə göstərdiyi münasibəti müqayisə edərək erməni vandalizmi barədə yazmaya bilməyib. O, ermənilərin bizim abidələrə qarşı vəhşiliyindən bəhs etməklə onların əməllərini bütün dünyada ifşa edib.

Bilirsiniz, Avropanın müxtəlif alimləri gəlib işğal altında olan Dağlıq Qarabağda qanunsuz arxeoloji qazıntılar aparırlar. Yaxşı olardı ki, Avropa alimləri öz həmkarlarını bu işdən çəkindirsinlər" - deyə Q.Hacıyev qeyd etdi.

Tarix üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova da hesab edir ki, P.Taysın məqaləsində yer alan müqaysə tam yerindədir. Bakının mərkəzində erməni kilsəsinin qorunması faktının xarici ekspertlərin də diqqətini çəkdiyini deyən F.Əhmədovanın sözlərinə görə, bunun əcnəbilər tərəfindən etiraf edilməsi müsbət haldır. "Xarici tədqiqatçıların, turistlərin Ermənistana, yaxud qanunsuz olaraq Dağlıq Qarabağa gedərkən orada qeyri-ermənilərə məxsus abidələrin vəziyyətini görməsi və sonra onu Azərbaycandakı vəziyyətlə müqayisə etməsi, onların arasında yerlə-göy qədər fərqi aşkarlaması təbiidir. Çünki Azərbaycan multikultural bir ölkədir və burada başqa xalqlara, dinlərə, mədəniyyətlərə aid bütün abidələr olduğu kimi qorunub saxlanır, dövlət tərəfindən hər cür şəraitlə təmin edilir. Onlar Ermənistanda, yaxud erməni işğalı altında olan Azərbaycan torpaqlarında isə azərbaycanlılara məxsus dini, maddi mədəniyyət abidələrinin ermənilər tərəfindən dağıdıldığını, yerlə-yeksan edildiyini aydın şəkildə görürlər. Bu fakt da onlara geniş müqayisə etmək imkanı verir. Xarici analitik açıq şəkildə yazır ki, Azərbaycan torpaqları, maddi mədəniyyət, dini abidələri ermənilərin təcavüzünə məruz qalıb, ermənilərə aid dəyər isə Azərbaycanda dövlət səviyyəsində qorunur. Cənubi Qafqaza yad olduqlarını və burada heç bir tarixi dövlətə malik olmadıqlarını örtbasdır etmək üçün etnik təmizləmə siyasəti həyata keçirməyə və burada yerli əhalinin, türklərin izlərini itirməyə nail olublar. Ona görə də bu gün erməni işğalında olan dədə-baba yurdlarımızda bir dənə də olsa bizə aid abidə qoymayıblar, bir çoxunu dağıdıblar, qalanları isə öz adlarına çıxıblar. Bu gün Azərbaycanda nəinki ermənilərə aid kilsə qorunur, hətta Azərbaycan vətəndaşları olan ermənilər də burada tamamilə sərbəst yaşayır, işləyir, heç bir problemlə üzləşmirlər. Bu, təbii ki, xarici ekspertlərin də diqqətindən qaçmır. Avropa, Amerika alimləri, analitikləri Azərbaycanı tanıdıqca, araşdırdıqca, ölkəmizin tolerant, multikultural bir ölkə olduğunu dərk edirlər və Ermənistanın bizim ölkədən fərqləndiyini aydın şəkildə görürlər" - deyə alim bildirdi.

**P.Teysin bu həqiqəti etiraf etməsini təqdir edən tarixçi bildirdi ki, bu onun vicdanlı bir ekspert olmasından və həqiqəti görmək bacarığından irəli gəlir: "Əcnəbi analitikin həqiqəti görməsi, onu öz yazısında qələmə alması erməni xislətinin, vandalizminin beynəlxalq aləmdə ifşa edilməsinə xidmət edir. Əminəm ki, belə vicdanlı insanlar, qələm sahibləri daim həqiqətin yanında olacaqlar və həmişə bu cür mövqe nümayiş etdirəcəklər".**

***İradə SARIYEVA***

**Prezident İlham Əliyev "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" əhatəli Fərman imzalayıb. Fərmanda məhkəmə sistemində islahatların aparılması və bu sahədə yaşanan bəzi problemlərin həll olunması qeyd olunub.**




*"...məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir"*

# Bundan sonra Azərbaycanda məhkəmə qərarlarını ictimaiyyətdən gizlətmək mümkün olmayacaq

## ***Əli İsaoğlu:** "Məhkəmə qərarları ilə bağlı hər hansı bir sorğu verilmədən həmin məlumatı elektron bazadan götürmək olar"*

Fərmanda diqqətçəkən məqamlardan biri də məhkəmə qərarlarının mütləq dərc olunması ilə bağlı məsələyə yer verilməsidir. Məlumat üçün bildirək ki, ötən ilin sonlarında məlum məsələ ilə bağlı sərəncam verilmişdi. Təəssüf ki, hələ də məhkəmə sistemi buna əməl etmir, amma indi bu məqam mütləqləşdirilir. Məhkəmə qərarlarının elektron qaydada dərc olunmasının əhəmiyyəti barəsində danışan hüquqşünas Əli İsaoğlu qeyd etdi ki, dövlət başçısı tərəfindən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" verilmiş Fərman və onun məzmunu ölkəmizdə heç bir sahənin bu qədər dəyişikliyə və yeniliyə məruz qalmadığını deməyə tam əsas verir: "Fərmanın məzmunundan da göründüyü kimi, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Fərmanda ölkəmizin məhkəmə-hüquq sisteminin inkişafına lazımi təminat verən ən həssas və əhəmiyyətli məsələlərə toxunularaq, onların müvafiq istiqamətdə dəyişikliyə məruz qalması üçün xəritə cızılır. Burada məhkəmə hakimiyyətinin nüfuzunun artırılması, cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi, Konstitusiyamızda və qanunlarımızda təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət olunması, cəza siyasətinin humanistləşdirilməsi və bəzi cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsinin vacibliyi vurğulanmaqdadır".

Həmsöhbətimiz onu da vurğuladı ki, Fərmanda əks olunan məqamlardan biri də məhkəmə qərarlarının mütləq elektron qaydada dərc olunmasıdır. Vəkilin sözlərinə görə, çox böyük sürətlə elektronlaşan dünyanın bir parçası olan ölkəmizdə artıq uzun müddətdir reallaşdırılmasına başlanan "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar proses yekunlaşdırılıb. Bu sahədə görülən və görüləcək işlər onu deməyə əsas verir ki, ölkəmizdə məhkəmə hakimiyyəti həm forma, həm də məzmun baxımından təkmilləşdiriləcək. Məhkəmə qərarları ilə bağlı hər hansı bir sorğu verilmədən həmin məlumatı elektron bazadan götürmək olar".

***Günel CƏLİLOVA***

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayıb. Fərmanın imzalanmasında məqsəd məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanması və bu sahədə islahatların dərinləşdirilməsidir.**

*"Bəzi hallarda məhkəmə iclasında deyilən sözlər dəyişdirilir, əksini sübut etmək də mümkün olmur"*

# Məhkəmə proseslərinin audioyazılarının aparılması hansı neqativləri aradan qaldıracaq...

## ***Əliməmməd Nuriyev:** "Məhkəmələrdə audioyazının aparılması proses zamanı yaşanan mübahisələrin qarşısını alacaq"*

Fərmanda qeyd olunur ki, məhkəmələrdə fasiləsiz audioyazı aparılacaq. Ekspertlər məhkəmələrdə audioyazının aparılmasını müsbət dəyərləndirirlər. Onların fikrincə, məhkəmələrdə fasiləsiz audioyazının aparılması xoşagəlməz halların qarşısını alacaq.



Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, məhkəmələrdə audioyazının aparılması proses zamanı yaşanan mübahisələrin qarşısını alacaq: "Məlumdur ki, məhkəmələrdə tərəflərin tam şəkildə nə dediyi yazılmırdı. Məhkəmələrdə nə zərərçəkənin, nə ittiham olunanın, nə də şahidin dedikləri tam şəkildə qeydə alınmırdı. Tərəflərin dediklərini necə istəyirdilər, elə də yazırdılar. Sən də sübut edə bilmirdin ki, mən bunu belə yox, belə demişəm. Təbii ki, bu kimi amillər sübutların obyektiv qiymətləndirilməsinə mane olur. Hesab edirəm ki, bundan sonra, sərəncamın tətbiqi başladıqda bu sahədə biabırçılıqlara son qoyula bilər".

Həmsöhbətimizin sözlərinə görə, məhkəmələrdə fasiləsiz audioyazının aparılması ilə protokol tərtib olunacaq. Bu qayda gələcəkdə həm hakimlərə imkan verəcək ki, sübutları daha obyektiv qiymətləndirsinlər, eyni zamanda, məhkəmə katibləri də qeydləri doğru-düzgün yazacaqlar: "Audioyazının tətbiqi ilə məhkəmədə hər hansı bir mübahisə predmeti olmayacaq.

Onu da bildirim ki, audioyazının tətbiqi hakimlərin qiymətləndirilməsinə də müsbət təsir edəcək. Belə ki, hakimlərin protokola nə dərəcədə düzgün yanaşıb-yanaşmadığı audioyazı əsasında müəyyən olunacaq. Bəzi hallarda məhkəmə sədrləri baxılacaq işləri hakimlər arasında bölür. Burada "yaxşı" və "pis" iş bölgüsü olur. Prezidentin fərmanında bu cür halların aradan qaldırılması üçün mexanizmin hazırlanması nəzərdə tutulur".

Ə.Nuriyev bildirdi ki, əvvəllər hakimin razılığı olmadan məhkəmədə audioyazı aparıla bilməzdi. Ancaq indi qanunvericiliyin tələbinə uyğun olaraq, məhkəmələrdə fasiləsiz audioyazı aparılacaq.

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayıb. Fərmanda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi ilə bağlı bir sıra məqamlar yer alıb. Onlardan biri də Azərbaycanda iş adamları üçün ayrıca məhkəmənin yaradılmasıdır.**

# Sahibkarlar üçün ölkədə ayrıca məhkəmələr qurulacaq...

## ***Sahib Məmmədov:** "Sahibkarlar üçün yaradılacaq məhkəmə mübahisələrin baxılmasında operativliyi artıracaq"*

Fərmanda qeyd edilir ki, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə əlaqədar yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyətinə aid digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmə yaradılmalıdır.



Azərbaycanda iş adamları üçün ayrıca məhkəmə yaradılmasının əhəmiyyəti barəsində danışan hüquq müdafiəçisi Sahib Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ixtisaslaşmış məhkəmənin yaradılması vacibdir: "Gömrük, vergi, sosial ödənişlərin həyata keçirilməsi ilə bağlı ixtisaslaşmış məhkəmənin yaradılması əhəmiyyətlidir. Sahibkarlar üçün ayrıca məhkəminin yaradılması barədə qanunvericiliyə əlavə dəyişiklik olunacaq. Nəzərə almaq lazımdır ki, ölkədə inzibati-iqtisadi məhkəmələr var. Bu kimi məsələlərlə bağlı işlərə hazırda adıçəkilən məhkəmələr baxır. Sahibkarlarla bağlı hər hansı bir problem, mübahisələr yarananda inzibati-iqtisadi məhkəmələr baxırdı. Ancaq indi bu sahədə dairə genişlənəcək".

Həmsöhbətimiz onu da vurğuladı ki, sahibkarlar üçün ayrıca məhkəmənin yaradılması dünya təcrübəsində mövcuddur: "Sahibkarlar üçün yaradılacaq məhkəmə mübahisələrin baxılmasında operativliyi artıracaq. Məlumdur ki, əvvəllər Vergilər Məcəlləsinə edilən dəyişikliklə Vergilər Nazirliyində Apelyasiya Şurasına şikayət verəndə vergi orqanının qəbul etdiyi qərar üzrə icraat dərhal dayanırdı. Ancaq bundan əvvəl isə icraat dayanmırdı. Sahibkarlar üçün məhkəmənin yaradılması məhkəmə-hüquq sistemində bir yenilikdir. Yaradılacaq yeni məhkəmə tək vergi və gömrük orqanlarını deyil, eyni zamanda, sahibkarlarla bağlı yaşanan problemləri də əhatə edəcək".

Hüquq müdafiəçisi hesab edir ki, ixtisaslaşmış məhkəmənin yaradılması daha operativ məhkəmə baxışlarına və ədalətli qərarların çıxarılmasına səbəb olacaq.

***Günel CƏLİLOVA***

# Amerika şirkətlərinin "Əsrin müqaviləsi"ndən çıxması - neft sektorumuza mümkün neqativ təsirlər, siyasi motiv...

**Məlum olduğu kimi, ABŞ-ın "ExxonMobil" və "Chevron" şirkətləri Azəri-Çıraq-Günəşli yataqlarındakı 16 faiz payını, o cümlədən Bakı-Tiflis-Ceyhan (BTC) boru kəmərindəki 10 faizə yaxın payını satırlar.**

*"Amerika şirkətlərinin Azərbaycandakı maraqları uzun illərdir BP-nin rəhbərliyi altında olan layihədə passiv səhmdar rolunda çıxış etmək olub"*

Onu da qeyd edək ki, hələ ötən ilin dekabrında "ExxonMobil" AÇG-dəki 6,79%-lik payını, "Chevron" isə layihədəki 9,57%-lik və BTC boru kəmərindəki 8,9%-lik payını satmaq niyyətində olduqlarını bildiriblər. Bu arada BP şirkəti Xəzərin Azərbaycan sektorunda yerləşən AÇG yataqlar blokunun işlənməsi layihəsində Amerikanın "ExxonMobil" və "Chevron" şirkətlərinin paylarının alınması məsələsinə baxmağa hazır olduğunu bəyan edib. Bununla bağlı mətbuata açıqlama verən BP qrupunun baş icraçı direktoru Robert Dadli bir sıra məqamlara toxunub: "AÇG-dəki iştirakımızı bəyənirik. Hesab edirəm ki, payımızın artırılması imkanı yaranarsa, bu bizim üçün təbii seçim olar, lakin hər şey qiymətdən asılı olacaq".

Onu da qeyd edək ki, AÇG layihəsində pay bölgüsü bu nisbətdədir: BP - 30,37% (operator), AzACG (SOCAR) - 25,00%, "Chevron" - 9,57%, "Inpex" - 9,31%, "Equinor" (keçmiş "Statoil") - 7,27%, "ExxonMobil" - 6,79%, TPAO - 5,73%, "Itochu" - 3,65% və "ONGC Videsh Ltd." (OVL) - 2,31%.

AÇG yataqlar blokunun birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında (PSA) saziş 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə blokun 2050-ci ilədək işlənməsinə dair yenidən işlənmiş saziş imzalanıb. O vaxtdan ABŞ şirkətləri Azərbaycanda neft hasilatının həyata keçirilməsində iştirak edirlər. Ötən illər ərzində sözügedən sektora sərmayələr yatırıblar. İki böyük ABŞ şirkətinin Azərbaycandan getməsi, geri çəkilməsi nə deməkdir? Bunun ölkədə neft hasilatına mənfi təsiri olacaqmı? Sözügedən qərarın hansısa siyasi mahiyyəti varmı?

Məsələyə münasibət bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, burada hər hansı digər səbəblər axtarmaq doğru olmaz: "Bu xəbər Bakıda yayılan kimi yerli media BP-nin AÇG-dəki payının artırılmasının Azərbaycanın enerji layihələrinə təsirini araşdıran materiallar dərc etməyə başladı. Sanki Dadlinin dilə gətirdiyi məsələ artıq həyata keçmiş bir fakt idi. Əslində, Robert Dadli açıqlamasında xüsusilə vurğuladı ki, BP-nin Amerika şirkətlərinin payını alması qiymətdən asılıdır. Yəni onların təklif etdiyi qiymət kommersiya baxımından cəlbedici olmasa, onda sövdələşmə baş tutmayacaq. BP rəhbəri, həmçinin, onu da əlavə etməyi unutmur ki, "hələlik "Exxon Mobile" və "Chevron" öz paketlərini qiymətləndirirlər və satış üzrə tenderə başlamayıblar". Dadlinin sözlərindən belə nəticəyə gəlmək olar ki, "Exxon Mobile" və "Chevron" şirkətlərinin AÇG layihəsindəki paylarını satması ilə bağlı xəbərlər mediada 2018-ci il dekabrın əvvəlində yayılmasına baxmayaraq, bu günə qədər onlar Xəzərdəki hasilat paylarının satışı ilə bağlı hər hansı tender etməyiblər. Tender prosedurunun keçirilməməsi isə qiymətləndirilmə prosesinin hələ başa çatmaması ilə əlaqədardır".



***İlham Şaban:** "ABŞ şirkətlərinin getmək istəmələrində hər hansı siyasi motiv yoxdur"*

İ.Şaban onu da qeyd etdi ki, ABŞ şirkətlərinin Azərbaycandan getmək istəmələrində hər hansı siyasi motiv yoxdur: "Buradan, həmçinin, cəmiyyətdə birmənalı qarşılanmayan bir sual ortaya çıxır: Amerika şirkətləri bu layihəni siyasi amillərə görə deyil, sırf iqtisadi maraqlara görə tərk edirlərsə, onda BP-nin kommersiya maraqları ilə onların maraqları arasında nə fərq var? Birincisi, BP AÇG layihəsi üzrə işlərə start veriləndən - yəni 1995-ci ilin yanvarından Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi layihəsinin operatoru olub. İkincisi, BP-nin Azərbaycan layihələri şaxələndirilib. Yəni BP Azərbaycanda həm kəşfiyyatla, həm hasilatla məşğul olur. Eyni zamanda, Azərbaycanın 3 ixrac boru kəmərinin operatoru rolunda çıxış edir. Bundan əlavə, BP Azərbaycanın təkcə neft sektorunun deyil, həmçinin, qaz sektorunun da aparıcı layihələrinə rəhbərlik edir. Eyni zamanda, BP SOCAR-la ölkənin hüdudlarından kənardakı layihələrdə də birgə əməkdaşlıq edir. Bu layihələr əvvəllər boru kəmərləri üzərində cəmləşsə də, ötən ildən başlayaraq Türkiyədə emal sənayesində (İzmirdə yeni kimya kompleksinin tikintisi layihəsi), Özbəkistanda isə karbohidrogenlərin kəşfiyyatı və işlənməsi layihəsi üzərində qurulub. Bu qərarın, ümumilikdə, ölkədə neft hasilatına, sənayesinə mənfi təsiri olmayacaq. Çünki Amerika şirkətlərinin Azərbaycandakı maraqları uzun illərdir BP-nin rəhbərliyi altında olan layihədə passiv səhmdar rolunda çıxış etmək olub. Ona görə də onların hasilatı bundan sonra azalmağa doğru gedən layihədə aktivlərini sataraq əldə edilən gəliri dünyanın digər yerlərində və ya ABŞ-ın neft aktivlərinə yerləşdirməsi daha cəlbedicidir. BP üçün isə bir layihədə neftin azalması digər layihədə qazın sürətlə artımı ilə müşayiət edilir.

Ümumilikdə, neft ekvivalenti hesabı ilə şirkətin kommersiya maraqlarına xidmət edir.".

***Vidadi ORDAHALLI***

# "Diqlas"dakı yanğından zərərçəkmiş sahibkarlara dövlət yardımının bir hissəsinin verilməsinə aprelin 5-dən başlanacaq



**Bakıda "Diqlas" ticarət mərkəzindəki yanğın zamanı zərərçəkmiş sahibkarlara dövlət yardımının verilməsinə aprelin 5-dən başlanacaq. "Trend"-in məlumatına görə, bunu Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev deyib.**

Nazir qeyd edib ki, ilkin mərhələdə sahibkarlar dövlət yardımının bir hissəsini ala biləcəklər. Vəsaitin qalanı isə dəymiş ziyanın yekun məbləği müəyyən edildikdən sonra ödəniləcək.

Ş.Mustafayevin sözlərinə görə, Prezident İlham Əliyevin sərəncamına əsasən sahibkarlara dövlət yardımının verilməsi qaydası 3 gün ərzində hazırlanıb.

Onun sözlərinə görə, sahibkarlara ödənişlər "Kapital Bank" və "TuranBank" vasitəsilə həyata keçiriləcək.

Nazir deyib ki, sahibkarlara dövlət yardımı bank kartları vasitəsilə nağdsız şəkildə veriləcək və banklar bundan xidmət haqqı tutmayacaq.

Ş.Mustafayev həmçinin qeyd edib ki, zərərçəkmiş sahibkarlar güzəştli kreditlərdən də yararlana biləcək və 14 -15 mln. manat məbləğində kreditin ödənilməsi gözlənilir

Qeyd edək ki, Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. Prezident yanğın hadisəsinin tam araşdırılıb təkliflərin verilməsi üçün komissiyanın yaradılacağını, bununla yanaşı, operativ olaraq sahibkarlara maddi dəstək göstəriləcəyini vurğulayıb.

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

# Gözlər yoldan yığılarmı...

## XATİRƏLƏR, DİLƏKLƏR...

*"Həyat insanın yaşadığı yox, yaddaşında qaldığı kimidir".*

***Qabriel Qarsia Markes. "Epiqraf" memuarları***

***(On altıncı yazı)***

Dünya şöhrətli yazıçının ömrünün son illərində qələmə aldığı, Allahdan ona əta olunan ömür payının düzəni boyunca düşünüb-daşındığı sonuncu qənaətlərindəndir bu. Bu sözlər uca SÖZ, düşüncə adamına məxsus olduğundan, Markesin "yaddaşında qalanlar" çox güman ki, təkcə onun həyatından fraqmentlər deyil, həmçinin, keçmişlə gələcəyin qovuşuğunda arzuladıqlarıdır.Tarixi şəxsiyyətlər, ələlxüsus SÖZ-ün keşiyində duran yazarlar sakini olduqları dünyanı heç zaman təkcə öz yaşam tərzləri prizmasından dəyərləndirmirlər. Onların baxış bucaqları dünənin, bu günün, sabahın fövqündə bəşəri dəyərlərin daha dərinlərə rişələnməsi və qorunması, eləcə də müasirlərinin çoxsaylı qayğılardan qurtulması yolunda əbədi çabalar göstərir. Cismən yaşadıqları və ədəbiyyətə qovuşduqları bütün zamanlarda...Bu xüsusda ədəbiyyatşünas-alim Firudin bəy Köçərlinin Azərbaycanın böyük klassik şairi Məhəmməd Füzuli haqqında qeydlərini xatırlayıram: "Füzuli... aləmi-insaniyyətdə tamam qəmzadələrin və möhnətkeşlərin yüklərini götürmək və məzlumların halına yanmaq üçün xəlq olunmuşdur".



Biz isə Xəqani taleyindən bəhs edən yazıların sonucuna doğru istiqamətləndikcə, qəhrəmanımızı canlandıran xatirələri daha çox yazıya gətirir, "yaddaşlarda qalanları" silkələyib üzə çıxarır, keçdiyimiz bu yol boyu cücərən ümidlərimizi dəfn etməyə tələsmir, əksinə, onları arzularımızın yeni-yeni qanadlarında gələcəyə doğru ünvanlayırıq. Kaş arzularımız doğrulsun, tükənməsin!.. Kaş yaranmış ümidlərimiz ilğıma dönməsin!.. Yorğun yolçular kimi ilğımı su bilib aldanmayaq...

### Xəqani: "Mən başıma yaylıq-şal bağlayıb evdə otura bilmərəm"

Söhbətimizi doğmalardan biri - Xəqaninin qardaşı, indi Bakıdakı orta məktəblərdən birində müəllim işləyən Gündüz Əkbərovla davam etdirirəm. Arabir söhbətimizə yazılarımızdan yaxşı tanıdığınız, Xəqaninin digər qardaşı Elçin də müdaxilə edir. Gündüz hazırda Bakının Sabunçu qəsəbəsində məskən salıb. Bu köç də Xəqani nisgili ilə əlaqəli baş verib. Səbəbini aramağa tələsməyin... Yazını oxuduqca mabədini biləcəksiniz. Artıq hamınıza bəllidir ki, Xəqaninin bütün doğmaları ilə təmaslarım zamanı onlara daha çox imkan yaradıram ki, 25 illik bir zaman kəsiyində ürəkləri nisgilli bu insanlar ürəklərini tam boşalda bilsinlər. Amma hərdən müdaxilələrimlə onların yaddaşlarını vərəqləyir, həqiqətləri daha çox, daha dərindən üzə çıxarmaq niyyətimi ortaya qoyuram. Bunlar mənim düşündüklərimdir, həmsöhbətlərim bundan xəbərsizdirlər. Düşünürəm ki, bu həm mənim zəngin məlumatlar toplamağım üçün bir vasitədir, həm də onların daxilən bir qədər yüngülləşməsi yolunda misilsiz addımdır. Hər iki istəyimə nə qədər nail ola bilirəmsə, bu mənim özümü də bir o qədər rahatlandırır. Qəhrəmanımın xarakterinin açılması, bəzi məqamlarda artıq şahidi olduğunuz kimi, onun sağlığına belə ümidlənməyim və xatirələrdən dolayı sizləri Xəqaninin gerçək kimliyi ilə tanış edə bilməyim naminə. Gündüz qardaşı ilə bağlı xatirələrinə nisbətən uzaq tarixdən başlamağa məcbur oldu. Amma bu məcburiyyət Xəqaninin onun həyatında əbədi iz qoyan bir nümunəni xatırlamaq istəyindən doğmuşdu. Dinləyin:

- Sizin də gedib-gördüyünüz Gəraybəyli kənd məktəbində mən on il direktor müavini işləmişəm. 1988-89-cu illərdə məktəbin xeyli vəsaiti var idi. Çünki məktəblilər sovxozun üzüm tədarükündə iştirak edirdilər, ona görə də əldə olunan vəsaitdən məktəbin hesabına pul köçürülmüşdü. SSRİ dövründə hardasa 18-20 min rubl pulumuz vardı. Onun bir hissəsini gətirib artezian quyusunun qazılmasına xərclədilər, bir hissəsi hesabda qaldı. Məcbur edildilər məktəbi ki, bəs o puldan xərcləmək lazımdır. Hara xərclənsin? Məlum oldu ki, Belarusun paytaxtı Minsk şəhərinə putyovka var. 18 nəfərlik putyovka idi. İçərisində başqa kəndin müəllim-şagirdləri olmaqla, dörd nəfər də biz - müəllimlər getdik Minskə. Həmin ərəfədə də əmim oğlunun toyu olacaqdı. Əmim məktəbdə müəllim işləyirdi. Baxdım onun üzünə. Dedi zərər yoxdur, get Minski gəz, gəzmək həmişə elə düşmür, toydu da, o birilər kimi yola verəcəyik, bir gün çalınacaq, bitəcək. Nə isə, biz getdik. Gedib-gəlməyimiz 10 gün vaxt apardı. Bu vaxt toya mənim indiki həyat yoldaşım, atamın dayısı qızı Rəna da gəlibmiş. Onda da evimizdə məsləhətləşmə gedirdi ki, bu qohum qızını Gündüzə alsaq yaxşıdır. Yoldaşım deyir ki, Xəqani gəlib toyda mənə çox ciddi şəkildə fikir verdi. Sən demə, toydan qayıdanda gəlib anama deyir ki, nə durmusunuz, gedin bu qızı Gündüzə nişanlayın. Beləcə, bizim evlənməyimizdə də onun rolu böyük olmuşdu. Sonralarsa mən kənddə yaşadığımdan, həyat yoldaşım onunla gəlin-qayın yox, bacı-qardaş münasibətində idilər. Nə fikri, nə dərdi olurdu, gəlib ona deyirdi (abır-həyanın daha çox gözlənildiyi kənd mühitində o zamanlar belə məqamlar çox yaşanırdı, yəqin elə indi də cüzi fərqlərlə qorunar - N.Z.). Yoldaşım da bu münasibətlərinə görə ona çox ərk edirdi. Müharibəyə gedəndə də Rəna deyir ki, ay Xəqani, niyə gedirsən, getmə, sən evin sonbeşiyisən-filan. Amma Xəqani təkidlə deyib yox, getməliyəm. Bəs kim getsin? O qaçır, bu gizlənir, torpağımız da gedir əldən, namus-qeyrətimiz də. Mən başıma yaylıq-şal bağlayıb evdə otura bilmərəm, mən gedəcəm.



*Kaş yaranmış ümidlərimiz ilğıma dönməsin!..*

Gündüz müəllim söylədi ki, Xəqani həm də yaxşı şeirlər yazırmış. Amma təssüf ki, dən onun biri də əllərində qalmayıb. Yoldaşı Rəna bir kupleti yadında saxlayıbmış, o da pərakəndə halda olduğundan, yaddan çıxıb, itbata düşüb. Elə Xəqaninin öz taleyi kimi…

### "Xəqani çox güclü şahmat oynayırdı"

Söhbətimizə çözələnən xatirələrin axarında davam edir. Müsahibim deyir Xəqani güclü şahmat oynamağı bacarırmış. Yəqin elə Vətəni müdafiə gərək olanda müdafiəni, torpaqları qorumaq gərək olanda hücumu seçməyində də öz rolunu oynayıb onun bu bacarıq və qeyrəti:

- Hətta idman müəllimi olmağıma baxmayaraq, məni də məğlub edirdi. Çox güclü "xodlar" edirdi. Birinci "xoddan" sonra artıq bilirdi ki, bu oyun hansı istiqamətdə davam edəcək. Üstəlik, nərdtaxtada da. Ümumiyyətlə, stolüstü oyunları yaxşı bacarırdı. Elə ona görə də mənə ondan iki yadigar qalıb. Bir dominosu, bir də nərdi. Bu iki şey hələ də məndədir. Kənddəki evimdə suvenir kimi saxlayıram. Hərdən gedəndə götürüb oynayıram, sonra yenə yığışdırıb qoyuram yerinə. Ancaq özündə bir şahmatı vardı, yığılma düzəltmişdi, onu tapa bilmədim.

- Bəs bir kiçik qardaş kimi necə qalıb yaddaşınızda Xəqani?

- Əvvələ çox mehriban, hər şeyin yerini bilən, gülərüz bir qardaş kimi xatırlayıram onu. Üstəlik, evimizin kiçiyi, kiçik qardaş kimi çox üzüyola idi. Sözəbaxan, son dərəcə diqqətcil və bacarıqlı olduğundan, ardınca getdiyi işin doxsan faizini mütləq yarıdırdı, 10 faizinin öhdəsindən gələ bilməsə də, bu onun sadəliyi, səmimiliyi qarşısında gözəgörünməz olurdu. Bu nüansların qarşılığında hamı çox istəyirdi onu.

### Xəqani stressinin izləri…

Gündüzlə sonrakı söhbətimiz Xəqani itkisinin törətdiyi bir sıra mənəvi, fiziki fəsadlara da aydınlıq gətirdi:

- Hamı etiraf eləyər bunu. Xəqaninin itkisinin stressini ən çox mən və mənim həyat yoldaşım yaşamışıq. Anam, Lələm (rəhmətlik atası Eyvaz kişini nəzərdə tutur - N.Z.), mən və həyat yoldaşım. Bilirsiniz, niyə?! Tutalım, Elçin qardaşım Bakıda yaşayırdı öz ailəsi-uşaqları ilə. O biri qardaşım Qinyaz bir kəndin içində yaşasaq da, yenə də ayrılıb gedirdi ev-eşiyinə, ailəsinin, övladlarının yanına, bir qədər başı qarışırdı. Bacım Sünbül də eləcə. Amma mən atamanamla bir yerdə yaşayırdıq. Özünüz təsəvvür edin ki, anam ah-nalə çəkməyə başlayanda onun naləsi azan səsindən betər təlatüm yaradırdı. Elə çığırırdı ki, kəndin o başından eşidilirdi. Camaat deyirdi ki, bu ağlayan ancaq Tellidir. Əvvəllər bu səsi eşidəndə təşvişə düşsələr də, zamanla artıq kənd camaatı da alışmışdı bu səsə. Amma özgələrçün yenə nə qədər olsa, bir soyuq yanaşma müşahidə olunurdu. İndi gör, evin içində bizlər nə çəkmişik!.. Allah heç kimə göstərməsin!.. Bu stressi biz keçirmişik. Nə qardaşlarım, nə bacım bizim qədər o günləri, o anları yaşamayıblar. Lap dəhşətli günlərimizi biz evin içində, 1993-cü ilin dekabrından 1994-cü ilin may-iyun aylarına qədər yaşamışıq. Əslində, burda "yaşamışıq" ifadəsini işlətmək bəlkə də heç yerinə düşmür. Ona bəyəm yaşamaq demək olardı?!.. Böyük oğlum hələ balaca idi. Xəqani Bakıdan gələndə ona bir köynək alıb gətirmişdi. Xırda kletkalı köynək idi. O uşaq həmişə paltar geyinəndə gedib o köynəyi götürürdü. Köynəyin də ömrü nə olacaq, iki il, üç il. Körpənin də paltarı çox bulaşıb-yuyulduğundan tez solub gedir. Mən bilsəydim həyatımız belə olacaq, o köynəyi yadigar kimi saxlayardım, qoymazdım geyindirsinlər. Amma nə biləsən ki, başımıza nələr gələcək?!..





Anam ki, ağlamağa başlayırdı, hamı deyirdi, ay Telli, bir az səbr elə, səbr elə, bəlkə elə gələcək, tapılacaq, dünyanın işini nə bilmək olar. Təsəvvür edin ki, kənd camaatı - burda yaşayan, şəhərdə yaşayan, qohum-əqrəba, demək olar ki, hər gün bizim evə ən azı 10 nəfər gəlirdi.

*(Ardı 14-cü səh.)*

*(Əvvəli 13-cü səh.)*

Evə də kimsə gəldisə, azərbaycanlı adət-ənənəmizə uyğun olaraq, onların qabağına çay qoyurduq, yemək verirdik. Bunların hamısını Rəna eləyirdi. Hər dəfə də deyirdi ki, bütün əziyyətlərim Xəqaniyə halal olsun. Elə indi də deyir bunu. Ancaq yenə deyirəm ki, gərginliyi biz keçirdik daha çox. Yoldaşım da, üzr istəyirəm, hamilə idi bu ərəfədə. Həmin hamiləlikdən doğulan uşaqda o stressin təsiri indi də qalır. Keçirdiyimiz gərginliklərin, yaşantılarımızın izləri indi də o uşağın üzərində bizimlə yaşayır. Çünki uşaq ananın bətnində olanda ana stress keçirə bilməz. O ana ağlamamalıdır, vahiməli sözlər danışmamalı, eşitməməlidir mümkün qədər. Bioloji cəhətdən izah olunur ki, düzgün deyil bunlar. Amma, təəssüf ki, bunlar baş verdi bizdə və indi də onun ağrıacısını çəkirik. Sonra hadisələr qarışdı bir-birinə. Qardaşım Elçinin həyat yoldaşı da rəhmətə getdi. Ağırlıq təzədən düşdü bizim üstümüzə. Yenə gət-gəl, filan. Anam da kənddə duruş gətirə bilmədi, çıxdı gəldi Bakıya, Elçingilə. Dərdimizin üstünə bir dərd də bununla gəldi. Atam da bizimlə yaşadı bir il yarım. Özümə ev tikmişdim kənddə. Gördüm daha ata evimizdə qalmağa tabım yoxdur. Dedim köçəcəyəm. Köçdük. Atamı da götürüb apardıq özümüzlə. Kişi yemək-içməyi bizdə yeyirdi, axşam gəlib öz evində yatırdı ki, birdən evə girərlər, oğurluq edərlər. Bir sözlə, atam evi yiyəsiz qoymaq istəmirdi. Düz bir il sərasər bu formada yaşadıq. Bilirsiniz, atanın da, ananın da, bacının, qardaşın da, qonşunun da öz yeri var, ancaq evin içində olan adam bilir ki, bunlar nə çəkir?!.. O gərginlikləri keçirmək çox çətin idi. Hər gün yalnız ağlaşma səsi eşidən adam başqa necə ola bilərdi ki… Nə qədər deyirdik ki, ay bacı, ağlama bəsdir, sənin başqa balaların var, nəvələrin var, xeyri olmurdu. Özü də indikindən qat-qat cavan idi, heç kimi eşitmirdi, o qədər ağladı, ağladı, ağlamaqdan gözləri də tutulmağa başladı. Bax, qulaqlarımız necə alışıbsa ağlaşma səsinə, indi də qonşuda-filanda bir ağı deyən səs eşidəndə diksinirik, Rəna deyir deyəsən xalamın səsi gəlir elə bil. Deyirəm ay qız, biz Sabunçuda, xalan Bakının başqa səmtində, çox uzaqdadır, onun səsi bura gəlib çatmaz. Nə deyim vallah! Allah-təala bizə belə bir ağrıacı qismət elədi.

**Gündüz: Xəqani gələcək, gələcək...**

Bu illər ərzində qardaşlarının Xəqaninin qəfil gəlişini gözləmələri, bu istəklə yatıb-oyanmaları, tez-tez ümidlənib-ümidsizləşmələri anlarının yaşantılarını yazıya gətirmək məndən ötrü çox dərin notlara toxunmaq olsa da, oxucular və gələcək nəsillərə doğmalıq ahəngini özündə bilavasitə əks etdirən bu dəyərlərin çatdırılması naminə onları soruşub bilməyə məcbur idim. Gündüz müəllimin bu xüsusda keçirdiyi həyəcanlı yaşam tərzini elə onun öz dilindən eşitməyiniz məsləhətdir:

- İnanın ki, uzun illər ata evimizdə yaşayanda həyət qapısını bağlamırdım. Atam deyirdi, bala, qapı açıq qalar, mal-qoyunumuzu apararlar, qurd-quş yeyər. Deyirdim, heç nə olmaz, Xaqan çöldədir, hardansa birdən gecə gələr, hasarın üstündən aşmasın, qapıdan rahat girsin… Sonra mən köçüb getdim öz evimə, orda, təzə evdə gördüm yuxuda mənə deyir ki, Gündüz, qapının dalını niyə vurmusan?! Qalxdım ayağa, getdim qapının dalını açdım. Ona görə orda da mən qapının arxasın açıq saxlamağa başladım. Neçə dəfə qonşularım deyirdi ki, gecə qapın açıq qalıb, niyə bağlamırsan? Deyirdim özüm açıq qoyuram, gələn olacaq. İnanın, həmişə səksəkəli yatmışam o illəri ki, Xəqani gələcək, gələcək…



**"Xəqaninin nişanlısı məktəbdə işlədiyinə görə direktorluqdan imtina etdim"**

Qardaşı Elçin bu yerdə qoşulur söhbətimizə:

- Təsəvvür edin ki, Sabunçu Maşınqayırma Zavodunda mən direktor müavini idim, o da burdakı sexlərdən birində çilingər işləyirdi. Xəqanidən sonra orda fəaliyyətim on üç il davam elədi. Amma nə zülmlər çəkdim, onu bir Allah bilir. Nəhayət, dözmədim, sonuncu haqq-hesabımı alıb işdən ayrılası oldum. Hər gün ora girəndə elə bilirdim məni qarşılayır, çıxanda yola salır. Çox çətin idi bu anları yaşamaq…

Gündüz:

- Mənə nə çətin gəlirdi... Onun nişanlısı kənddə mənim direktor müavini işlədiyim məktəbimizdə fizika dərsi deyirdi. O gəlib salamlaşıb gedirdi dərsini deməyə. Mən isə məktəbin dərs hissə müdiri kimi gündəlikləri yoxlayıb qol çəkməli, dərsin gedişatın və s. yoxlamalı, dərs dinləmələri keçirməli idim. Bunlar bilavasitə mənim işlərim idi. Təsəvvür edin ki, görürdüm o qız ordadır, mən yolumu dəyişib başqa otağa girirdim ki, təki onu görməyim. Niyə görməyim? O mənada yox ki, düşmənimdir, ya kimdir. O mənada ki, onu hər görəndə Xəqani mənim gözümdə yenidən ölüb-dirilirdi. Deyirdim, müəllimə, elə həftədə bir dəfə gündəliyini verərsən qol çəkərəm. Gətirirdi, açırdım baxmadan qol çəkib qaytarırdım özünə.Yalnız bir dəfə ürəyimi basıb onun dərs dinləməsinə getmişdim. Qalan vaxtlar iştirak etməmişdim onun dinləmələrində. Hər gün saat 8-dən saat 3-ə kimi mən məktəbdə qalmalıydım. İşimin xarakteri beləydi. Qız isə bir neçə saat dərsini deyib gedirdi. O bir neçə saatı mən Xəqanini xatırlayıb nələr çəkirdim, onu bir Allah bilirdi. İnanın ki, bu mənzərəni görməməyin ucbatından 1997-1998-ci illərdə Bakıda ev alası oldum. Qardaşım Qinyaz rayon təhsil şöbəsi ilə danışmışdı ki, məktəb direktorluğuna mənim namizədliyimi dəstəkləsinlər. Məktəbin direktoru artıq rəhbərliyi yerinə yetirə bilmədiyindən məni onun yerinə namizəd kimi göstərmişdilər. Mənə eşitdirdi qardaşım ki, belə bir addım atıla bilər. Mən iyul ayında məzuniyyətə çıxdım. Bu biri qardaşım bilirsiniz ki, Bakıda zavod direktorunun müavini idi, ona zəng elədim, mənə bir maşın göndər, Bakıya aparılası əşyalarım var. Heç kənddəkilərin də xəbəri olmadı. Maşını yükləyəndə xəbər tutdular ki, hara gedirsən? Dedim daha mən getdim. Bunun ancaq bir səbəbi vardı. Xəqaninin nişanlısının o məktəbdə işləməsi. Direktorluqdan da imtina etdim, kənddəki ev-eşiyimi də qoyub çıxdım gəldim Bakıya (bu, psixoloji cəhətdən yorulmağının nəticəsidir Gündüz müəllimin. Başadüşülən durumdur - N.Z.). Sonradan elə oldu, razılığını verdilər, qız köçüb ailə qurdu, neyləmək olardı ki…

*(ardı var)*

***Nəzirməmməd Zöhrablı***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV MƏHƏRRƏM ƏŞRƏF oğlu**



20 avqust 1955-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Alolar kəndində doğulmuşdur. İtkin düşənə qədər Kəlbəcər rayonunun Keşdək kəndində yaşamışdır. Mülki şəxs. Babayev Məhərrəm Əşrəf oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 fevral 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Məhərrəm Əşrəf oğlu 16 fevral 1993-cü il tarixində Ağdərə rayonu ərazisində Qozlu körpü adlanan yerdə erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürülmüşdür.

Babayev Məhərrəm Əşrəf oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV MƏHƏRRƏM ƏVƏZ oğlu**



6 may 1964-cü ildə Azərbaycan Respublikasının Beyləqan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Beyləqan rayonunun Şərq qəsəbəsində yaşamışdır. Beyləqan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Məhərrəm Əvəz oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 iyun 1993-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Məhərrəm Əvəz oğlu 16 iyun 1993-cü il tarixində Füzuli rayonunun Gövşatlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Məhərrəm Əvəz oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV MİRİŞ MİRDAMƏD oğlu**



14 may 1972-ci ildə Azərbaycan Respublikasının Neftçala rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Neftçala rayonunun Aşağı Qaramanlı kəndində yaşamışdır. Neftçala RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Miriş Mirdaməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 28 iyul 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Miriş Mirdaməd oğlu 28 iyul 1992-ci il tarixində Ağdərə rayonunun Drombon (indi Heyvalı) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Miriş Mirdaməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV MİRTALIB SOLTANƏLİ oğlu**



1 oktyabr 1974-cü ildə Azərbaycan Respublikasının Şamaxı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Qobustan rayonunun Cəyirli kəndində yaşamışdır. Qobustan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Mirtalıb Soltanəli oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 19 fevral 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Mirtalıb Soltanəli oğlu 19 fevral 1993-cü il tarixində Ağdərə rayonunun Zərdəxaç kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Mirtalıb Soltanəli oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Yaradıcı insanların stimullaşdırılması dövlətin həyata keçirdiyi sosial mədəniyyət siyasətinin tərkib hissəsidir. Son 20-25 ildə Azərbaycanın yaradıcı şəxslərinə, rəssamlara, heykəltəraşlara, memarlara, sənətşünaslara, yazıçılara, şairlərə, ədəbiyyatşünaslara, bəstəkarlara, musiqişünaslara Prezidentin fərdi təqaüdü və Prezident mükafatları verilir.**

*Aşıqlar Birliyinin yalnız iki üzvü Prezidentin fərdi təqaüdçüsüdür*

***Rəssamlar İttifaqının 70 üzvü Prezident mükafatı alır, fərdi təqaüd alanların sayı isə...***

*Yazıçılar Birliyi üzvlərinin 70-i Prezident mükafatı, 10-a yaxını isə Prezidentin fərdi təqaüdünü alır*

***Bəstəkarlar İttifaqının 40 üzvü Prezident mükafatı, 21 üzvü isə Prezidentin fərdi təqaüdünü alır..***

# Yaradıcılıq ittifaqlarının yeni qalmaqalı - Prezident mükafatçılarının sayı barədə niyə hesabat verilmir...




Prezident təqaüdləri ömürlük verilsə də, Prezident mükafatı birillik verilir. Lakin elə insanlar var ki, onlar yaradıcılıq qurumlarının rəhbərliyinin "xüsusi diqqətində" olduğu üçün, hər il adı Prezident mükafatçıları siyahısına salınır. Sözsüz ki, bu da yaradıcılıq qurumları üzvlərinin narazılığına səbəb olur və bu proses hətta qalmaqalla müşayiət olunur. Bəzən deyirlər ki, filan gənc yazıçı birlik, ittifaq sədrinin xüsusi rəğbətini qazandığı üçün onun adı hər il yenilənən siyahıya daxil edilir. Yaradıcı adamlar hesab edirlər ki, 300 manat məbləğində olan Prezident mükafatı alanların hər il tərkibi dəyişdirilməlidir ki, başqaları da bu mükafatlardan bəhrələnə bilsin.

Mətbuatda yer alan fikirlərə görə, Prezident təqaüdü alan yazıçı, şair, rəssam və bəstəkarların siyahısı açıqlanmır. Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İntiqam Hümbətov "Prezident təqaüdü alacaq üzvlərin siyahısını Mədəniyyət Nazirliyinə yaradıcı ittifaqlar təqdim edir" - deyə bildirib.

O, həmçinin, qeyd edib ki, nazirlik təqaüd alanların sadəcə maliyyələşməsini təmin edir: "Burada hər üç yaradıcı ittifaq - Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı və Rəssamlar İttifaqının təqdim etdiyi siyahıya baxılır. Qurumların təqdim etdiyi siyahı təsdiqlənir. Yazıçılar İttifaqından 70 nəfər yaşlı, 50 nəfər gənc yazıçıya, Rəssamlar İttifaqından 50 nəfər yaşlı, 20 nəfər gənc rəssama, Bəstəkarlar İttifaqından isə 30 nəfər yaşlı, 10 nəfər gənc bəstəkara 1 illik təqaüd müəyyən olunub.

Yaşlı nəsil mədəniyyət nümayəndələrinə aylıq 300 manat, gənclərə isə 200 manat Prezident təqaüdü verilir. Növbəti illərdə siyahı yenilənir və nazirliyə təqdim edilir. Qeyd etdiyim kimi, nazirlik siyahını sadəcə təsdiq edir və maliyyə ayırır. Həmin yaradıcı ittifaqlar özləri məlumat versələr, siyahı ilə əlaqədar sualları cavablandırsalar, daha yaxşı olar".

Hansı yaradıcı ittifaqın neçə üzvü Prezidentin fərdi təqaüdünü, neçə üzvü Prezident mükafatı alır?

Azərbaycan Yazıçılar Birliyinin (AYB) mətbuat xidmətinin rəhbəri Xəyal Rza "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Birliyin təqaüd və mükafat alan üzvlərinin sayı heç zaman gizlədilmir. Onun bildirdiyinə görə, Birlik üzvü olan 20 nəfər gənc, 50 nəfər yaşlı və orta yazlı yazar 1 illik Prezident mükafatı alır. "Ümumilikdə, Azərbaycan Yazıçılar Birliyinin 70 üzvü Prezident mükafatı alır. Prezidentin fərdi təqaüdçülərinin sayına gəlincə, onların sayı 10 nəfərə qədərdir".

Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı isə bizimlə söhbətində bildirdi ki, Birliyin yalnız iki üzvü - əməkdar mədəniyyət işçiləri aşıq Mahmud Məmmədov və aşıq Ulduz Quliyeva Prezidentin fərdi təqaüdünü alır. "Birliyin heç bir üzvü Prezident mükafatı almır. Keçən ilə qədər yalnız əməkdar mədəniyyət işçisi Samirə Əliyeva alırdı, bu il onun adı siyahıya düşmədi. Ancaq mən aşıqlara Prezident mükafatı və Prezidentin fərdi təqaüdünün verilməsi ilə bağlı Mədəniyyət Nazirliyinə müraciət etmişəm. Hazırda aşıq Əli Quliyevin Prezidentin fərdi təqaüdünə layiq görülməsinə çalışırıq. Ümid edirəm ki, hazırda ağır xəstə vəziyyətində olan görkəmli aşıq Prezidentin fərdi təqaüdünə layiq görüləcək" - deyə M.Qasımlı bildirdi.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbraihimov isə bildirdi ki, Rəssamlar İttifaqının 20 nəfər gənc, 50 nəfər yaşlı nəslə aid olan üzvü 1 illik Prezident mükafatı alır. "Əslində, yaradıcılıq ittifaqlarının üzvlərinə Prezident mükafatının verilməsi ideyası Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilova məxsusdur. O bir neçə il əvvəl təklif etmişdi ki, gənc rəssamların həvəsləndirilməsi üçün belə bir mükafatın verilməsi çox yaxşı olardı. Sağ olsun dövlətimiz, yalnız Rəssamlar İttifaqının deyil, digər yaradıcılıq qurumlarının da üzvlərinə Prezident mükafatı verilməsini reallaşdırdı. Bizim ittifaqda 20 nəfər gənc, 50 nəfər isə yaşlı rəssam Prezident mükafatı alır. Prezident təqaüdçülərinin sayını isə dəqiq bilmirəm" - deyə o bildirdi.

Azərbaycan Bəstəkarlar İttifaqının baş məsləhətçisi Sevda Hüseynova isə "Bakı-Xəbər"ə verdiyi məlumatda qeyd etdi ki, İttifaqın 40 üzvünə 1 illik Prezident mükafatı verilir. "Hər il siyahı dəyişdiyindən, mən sizə adları deyə bilməyəcəyəm. Ancaq 10 nəfər gənc, 30 nəfər isə yaşlı nəslin nümayəndəsi Prezidentin xüsusi sərəncamına əsasən xüsusi mükafat alır. Bu aiddir Bəstəkarlar və Rəssamlar ittifaqlarına, eyni zamanda, Yazıçılar Birliyinə. Prezidentin fərdi təqaüdçülərinə gəlincə, 21 nəfər İttifaq üzvü fərdi təqaüd alır" - deyə Sevda Hüseynova bildirdi.

***İradə SARIYEVA***



**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü, 14 saylı Vəkil Bürosunun rəhbəri Telman Qasımov bildirib ki, Prezident İlham Əliyev tərəfindən imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman ölkədə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasına səbəb olacaq, paralel olaraq bu sahədə islahatların dərinləşdirilməsinə şərait yaradacaq.**

# Başlanmış yeni hüquqi islahatlar vəkillərə aid məsələləri də əhatə edəcək...

*"Tələb olunan vəsaitin bilavasitə Vəkillər Kollegiyasına köçürülməsi ilə..."*

Nəticə etibarilə isə ölkədə ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasını təmin edəcək. Onun sözlərinə görə, Fərmana əsasən Azərbaycanda yeni ixtisaslaşdırılmış məhkəmə yaradılacaq: "Sənəddə qeyd edilib ki, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılmasını və sahibkarlığa bağlı mübahisələrə münasif sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmə yaradılmalıdır. Fərmanda eyni zamanda, qeyd olunur ki, "Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilsin ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər".

Vəkil əlavə edib ki, sözügedən Fərmanda cəza siyasətinin humanistləşdirilməsinə dair tədbirlər də əksini tapıb: "Sənəddə birbaşa göstərilir ki, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, müvafiq qanun layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər. Bütün bunlar deməyə əsas verir ki, Fərmanda əksini tapan məsələlərin reallaşdırılması nəticəsində vətəndaşların məhkəməyə müraciət imkanları daha da genişləndiriləcək, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılacaq, məhkəmə qərarları tam və vaxtında icra ediləcək, süründürməçilik və digər neqativ hallar aradan qaldırılacaq. Bununla da cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması təmin ediləcək".

T.Qasımov qeyd edib ki, müstəqil təsisat olan Vəkillər Kollegiyasının fəaliyyətinin yeni, demokratik əsaslarla təşkil edilməsi və əhaliyə hüquqi yardımın yaxşılaşdırılması məqsədilə 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun qəbul edilib, hüquqi yardımın göstərilməsində bu orqanın rolunun daha da artırılması məqsədilə bu sahədə qanunvericilik daha da təkmilləşdirilərək müasir tələblərə uyğunlaşdırılıb. Dövlət başçısı tərəfindən imzalanan Fərmanda da dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin bilavasitə Vəkillər Kollegiyasına köçürülməsi ilə bağlı müvafiq normativ-hüquqi aktın hazırlanması ilə bağlı tapşırıq var. Şübhəsiz ki, bu Fərman Azərbaycanda vəkillik institutunun da səmərəliliyinin artırılması, vətəndaşlara keyfiyyətli hüquqi yardımın göstərilməsini təmin edəcək.

***Namiq QULİYEV***

№ 60 (3958) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

5 APREL 2019-cu il

www.baki-xeber.com

# Azarkeş yuxusunda oyunun hesabını görüb pul qazandı



**İngiltәrәli azarkeş Tom Stills yuxusunda futbol matçının düzgün hesabını görüb vә bu ona qazanc gәtirib.**

"Milli.Az" Mirror nәşrinә istinadәn bildirir ki, Stills İngiltәrә ikinci liqasının 40-cı turunda keçirilәn oyunda "Kolçester Yunayted"in "Kembric"ә qalib gәlәcәyini yuxusunda görür vә bunu dostları ilә bölüşür. Dostları isә ona futbol mәrci etmәyi mәslәhәt görürlәr. Britaniyalı azarkeş görüşün düzgün nәticәsinә 10 funt-sterlinq (22.41 AZN) pul qoyur. Matç 1-0 hesabı ilә, "Kolçester"in lehinә bitib vә Stills mәrcdәn 418 funt (936,69 AZN) qazanıb. "Mәn sadәcә tәәccüblәndim. Bu hәtta bir az mәni qorxudur", - deyә Stills bildirib.

O bu pula Budapeştә bir sәyahәt dә planlaşdırdığını sözlәrinә әlavә edib.

## Elan

Muradova Xalidә Sәmid qızının, Muradov Haman, Әliyev Yadigar Haman oğlunun, Әliyeva Umcahan Yadigar qızının, Әbülova Mәtanәt Ağadәdә qızının adına verilmiş 30 avqust 1999-cu il tarixli, 1672 nömrәli (kod:30800118) dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Qәdәşov Sәbuhi Hacıvәli oğlunun adına, Bakı şәhәri, Xәzәr rayonu, Mәrdәkan qәsәbәsindә yerlәşәn 12 sot torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (CN 20376) itdiyi üçün etibarsız sayılır.

Qәdәşova Dilşad Rza qızının adına, Bakı şәhәri, Xәzәr rayonu, Mәrdәkan qәsәbәsindә yerlәşәn 12 sot torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (CN 20403) itdiyi üçün etibarsız sayılır.

Yunusova Gülüş Әhmәd qızının adına, Qәbәlә rayonu, Tuntul kәndindә yerlәşәn torpaq sahәsinin (CN-159 kod 40616018) torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Әhmәdov Asәf Abbas oğluna Hacıqabul Rayon Hәrbi Komissarlığı tәrәfindәn verilmiş veteran vәsiqәsi (M/V 050554) itdiyi üçün etibarsız sayılır

Qasımova Fidan İlyas qızına Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Osmanova Elnurә Eldar qızının adına, Bakı şәhәri, Yeni Yasamal, M.Xiyabani küçәsi, ev 33, mәnzil 463 ünvanının maliyyә arayışı vә müqavilәsi itdiyi üçün etibarsız sayılır.

Әliyev Loğman Әhәd oğluna Ağdam Rayon Hәrbi Komissarlığı tәrәfindәn verilmiş veteran vәsiqәsi (M/V № 068381) itdiyi üçün etibarsız sayılır.

Hüseynov Elşәn Teyyub oğlunun adına, Bakı şәhәri, Xәzәr rayonu, Buzovna qәsәbәsi, 1 A-1237 saylı sahәdә yerlәşәn torpaq sahәsinә dair kәnd tәsәrrüfatı idarәsinin verdiyi arayış, torpaq sahәsinin plan vә ölçüsü, Abşeron Rayon İcra Hakimiyyәti tәrәfindәn 15 aprel 1999-cu ildә verilmiş 096 sәrәncamdan çıxarış, "Azәrenerji" tәrәfindәn 06.08.2018-ci il tarixdә verilmiş mәktub itdiyi üçün etibarsız sayılır.

Fәtullayev Sabir Әhmәd oğlunun adına, Bakı şәhәri, Suraxanı qәsәbәsi, H.Bayramov küçәsi, ev 44 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## Ağciyәrlәri nikotindәn tәmizlәmәk üçün 9 qayda...

**Çox siqaret çәkәn insanlar ağciyәrlәrindәn narahatdırsa, siqareti azaltmaqla yanaşı, ağciyәr toxuması vә bronxlarını siqaretlә dolan toksinlәrdәn tәmizlәmәk istәyirsә, qarşısına mәqsәd qoyub aşağıdakı mәslәhәtlәrә әmәl etmәlidir.**

"Medicina.az" bildirir ki, ağciyәrlәri tәmizlәmәk üçün mütlәq 1 hәftә aşağıdakıları etmәk lazımdır. 1.Tәmizlәnmәdәn 1 hәftә әvvәldәn bütün süd vә süd mәhsullarını qidadan çıxarın. Onlar da orqanizmdә çöküntülü toksinlәr yaradan maddәlәrә malikdir. 2. Tәmizlәnmәnin birinci günü axşam yatmazdan әvvәl bitki çayı- çobanyastığı, nanә vә ya qarğıdalı saçağı dәmlәmәsi içirsiniz. 3. Sәhәr yemәkdәn әvvәl 300 ml suya 2 limonun suyunu sıxıb içirsiniz. 4. Saat 11-12 arası 300 ml tәzә kök şirәsi içirsiniz. 5. Naharda quru meyvәlәrdәn kompot içir vә ya qaysı qurusu ilә yoqurt yeyirsiniz. 6. Yatmazdan әvvәl nar şirәsi içirsiniz. 7. Gün әrzindә bitki çayları için. 8. Tәmizlәnmә әrәfәsi hәr gün dәniz duzu qatılmış isti vannada uzanın. Vә ya isti saunaya gedә bilәrsiniz. Toksinlәr tәrlә çıxar. 9. Sonuncu mәrhәlә inhalyasiyadır. Qaynar suya 15 damcı ekvalipt yağı damızdırıb, dәsmalı başına atıb, o suyun buxarı ilә nәfәs alın. Bütün bunları 1 hәftә edirsiniz. Daha sonra, 3 aydan bir tәkrarlayırsınız. Ağciyәrlәriniz nikotin qalıqlarından xeyli tәmizlәnәcәk.

## Almaniya klubu qütb ayısına sponsor oldu

**Bundesliqada çıxış edәn "Herta Berlin" klubu verdiyi açıqlamada Berlindәki "Tierpark" adlı heyvanxanada 4 ay öncә dünyaya gәlәn körpә qütb ayısına sponsor olduqlarını açıqlayıb.**




"Milli.Az" xәbәr verir ki, bu barәdә alman klubunun rәsmi "Twitter" hesabı paylaşdığı videoda mәlumat yayıb. Klub nәsli kәsilmәk tәhlükәsi olan qütb ayısının ad sponsoru olub: "Berlindә hәr şey ola bilәrsiniz. Adı "Herta" olan bir qütb ayısı belә..." Videoda klubun talismanı olan boz ayı "Hertinyo" Berlin Olimpiya Stadionundan Tierparka doğru yola çıxaraq klubun yeni üzvü ilә bir araya gәlir. Daha sonra isә körpә qütb ayısı üzәrindә "Herta" yazısı olan topla oynamağa başlayır. Heyvanxananın rәsmi saytının verdiyi mәlumata görә, ağırlığı 385-410 kq arasında dәyişәn yetkin bir qütb ayısına sponsor ola bilmәk üçün illik әn azı 1000 avro ödәmәk lazımdır.




**Qoç** - Hadisәlәrin dinamikasını müşahidә edin, günün tempindәn geri qalmayın. Görüşlәr, informasiyalar sizi laqeyd qoymayacaq. Plan vә ideyaların heç dә hamısı yaxın әtrafınızdakı insanlar tәrәfindәn rәğbәtlә qarşılanmır.


**Buğa** - Günü, sakit şәraitdә keçirmәyә can atın. Tәzyiqlәr artarsa, hadisәlәrin axarı güclәnәrsә, tәkbaşına çalışmağa üstünlük verin. Maraqlarınızın tam tәminatına vә planın yerinә yetirilmәsinә ciddi diqqәt verin.


**Әkizlәr** - Aktiv olun. Әsaslı, maraqlı vә perspektivli işlәri ön plana çәkin. Orqanizmin energetik tonusunun bәrpasına fikir verin. Mәnafelәrinizin tapdanmasına imkan vermәyin. Maaş vә ya vәzifәyә görә tәhqirlәrә dözmәyә dәymәz.


**Xәrçәng** - Sәhәr saatlarından etibarәn әtalәtli olmayın, hadisәlәrin arxasınca getmәyin. Olaylar sizdәn yan keçmәsin. İşdә qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün planlı davranın.


**Şir** - Gәrgin, tәlaşlı, әndişәli gündür. Diqqәti bir işdә cәmlәmәk çәtindir. Mühüm mәsәlәlәrdәn biri sizi fәal iştirakınız vә müdaxilәniz olmadan hәllini tapacaq. Hәddәn artıq aktiv olsanız, әldә edilmiş nәticә qeyri-konstruktiv olacaq.


**Qız** - Yaxın bildiyiniz insan vә dәyәr verdiyiniz şәxslә münasibәtlәrdә gәrginlik yaratmamaq üçün hәddәn ziyadә tәlәbkar olmayın. Yersiz sәmimiyyәtә varmayın. Dәvәt aldığınız yerә gedin, yeni tanışlıqlarda sayıq davranın.


**Tәrәzi** - Maraqlarınız vә perspektivlәriniz әmәkdaşlıqla bağlıdır. Yaxın әtrafınızdakı insanlar sizin problemlәrinizlә dәrindәn maraqlanmırlar. Özünüzü aldatmayın, qәtiyyәtli olun, yalanlara uymayın.


**Әqrәb** - Gәrginlik, tәmaslardakı aqressivlik artır. Yarımçıq qalmış işlәri bitirin, bir yerdә oturmayın. Yaxın әtrafınızdakı insanla aktiv tәmaslarda olun. Maraqlandığınız mәsәlә ilә bağlı fikrinizi dәyişә bilәcәk xәbәr, informasiya ala bilәrsiniz.


**Oxatan** - Sәhәr saatlarından etibarәn aktiv olun. İmkan vә resurslarınızdan yararlanın. Yaradıcılıq imkanlarından faydalanın. Özünüzü rahat hiss etdiyiniz әlaqәlәr vә etimad etdiyiniz insanlarla tәmaslarla kifayәtlәnin.


**Oğlaq** - Dәqiqlik vә konkretlik tәlәb edәn işlәrdә aktivlik nümayiş etdirin. Günün hadisәlәrinin mәğzini, münasibәtlәrin әsaslarını tәxminlәmәyә can atın. Planların fәrqli mәcraya yönәlmәsi istisna deyil.


**Dolça** - Әsas diqqәti gәrәkli mәlumatın aranmasına, ondan sәrfәli istifadә olunmasına yönәldin. Әlaqәlәr, tәmaslar vә qarşılıqlı sәrfәli tәrәfdaşlıq çox vacibdir. Yaxınlarınız vә ya qohumlarınızdan birinin hәyatındakı hadisә sizә ciddi tәsir edә bilәr.


**Balıqlar** - Qәfil tәәssüratlar vә hadisәlәrdәki kәskin dönüşlәr zamanıdır. Ciddi, genişmiqyaslı işә başlamağa tәşәbbüs etmәyin. Yaşamın indiki dövrdә tәklif etdiklәri ilә kifayәtlәnmәyә dәyәr.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Әn mürәkkәb toxumalardan birinin 3D implantı hazırlanıb

**Alimlәr osteoxondronal toxumanın bәrpası üçün 3D implantın yaradılmasına daha da yaxınlaşıblar.**

Sümük vә qığırdaq arasında yerlәşәn bu mürәkkәb elementin sağalması bir çox idmançılar üçün problemdir. "ICTnews" bildirir ki, amerikalı alimlәr qrupu osteoxondronal toxumanın fiziki xüsusiyyәtlәrinin bәrpası üzrә ilkin nәticәlәri tәqdim ediblәr. Bu mürәkkәb bioloji toxuma sümük vә qığırdaq arasında yerlәşir vә diz, topuq vә dirsәk zәdәlәrinә görә, hәmçinin qocalma ilә әlaqәdar tez-tez zәdәlәnir. Osteoxondral toxumanın strukturu onu imitasiya etmәk üçün son dәrәcә mürәkkәbdir, ancaq alimlәr implantın gәlәcәk prototipini çap etmәyә müvәffәq olublar. Bu barәdә mәlumat Rays Universitetinin saytında dәrc edilib. Alimlәr komandası analoqun yaradılması üçün polimer vә keramika qarışığından istifadә edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.